

*Məhəmməd Əmin Rəsulzadə*

# Azərbaycanda Milli hərəkat

# Национальное движение в Азербайджане



2009
17

Т3(2А)
R55

Məhəmməd Əmin
Rəsulzadə

# Azərbaycanda Milli hərəkat

# Национальное движение в Азербайджане

83845

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

85914

Bakı – "Elm" – 2009

250464
250443-Bibl.

**_Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 125 illiyinə_**

*Təqdim edəni: professor* Şirməmməd Hüseynov
*Tərcümənin redaktoru: professor* Nəsir Əhmədli
*Ümumi redaktor:* Ülkər Hüseynova
*Texniki redaktor: f.e.n.* Zaur Babayev

**Məhəmməd Əmin Rəsulzadə.** Azərbaycanda Milli hərəkat. Bakı: "Elm", 2009. - 128 s.

**Мамед Эмин Расулзаде.** Национальное движение в Азербайджане. Баку: "Элм", 2009. - 128 с.

ISBN 5-8066-1665-7

R $\frac{0802000000}{655(07)-2009}$

© Elm nəşriyyatı, 2009.

## "VOPROSI İSTORİİ" JURNALININ QİYMƏTLİ TÖHFƏSİ

"Voprosı istorii" ("Tarix məsələləri") sovet dövründə yaranmış tarix jurnalları içərisində ən qədimidir. 1926-cı ildən 1941-ci ilə qədər "İstorik-marksist" ("Marksist tarixçi"), sonra "İstoriçeski jurnal" ("Tarix jurnalı") adları ilə nəşr olunmuşdur. 1945-ci ildən indiki adı ilə çıxır. Rusiya və dünya tarixinin aktual problemlərini dərindən və obyektiv işıqlandırdığına görə elmi ictimaiyyət arasında yüksək nüfuz qazanmışdır. Bütün bu illər boyu jurnalın səhifələrində Rusiya və bir çox xarici ölkənin görkəmli tarixçilərinin əsərləri dərc edilmişdir. Analoji nəşrlərdən həm Rusiya, həm də bütövlükdə dünya tarixini əhatə edən geniş mövzu dairəsi ilə, materialların yüksək nəzəri səviyyəsi ilə, ölkələrin və xalqların mürəkkəb tarixi inkişaf proseslərinə qərəzsiz yanaşması ilə, müasir tarixi fikrin hərtərəfli təhlili ilə seçilir.

Son vaxtlar jurnalda tarixi sənədlər, əsasən, uzun illər yasaq altında saxlanmış arxiv materialları böyük yer tutur. Belə yazılar "XX əsrin siyasi arxivi" rubrikasında dərc edilir. Jurnalın "Tarixi portretlər", "Tarixi publisistika", "Tarixçilər zaman və özləri haqqında" kimi bölmələri xüsusilə diqqətəlayiqdir.

Son onilliklərdə jurnalın səhifələrində dərc edilmiş, hazırda həm də kompüter versiyasında verilən materiallar tarix elminin keçdiyi daşlı-kəsəkli inkişaf yolunu göz önünə gətirməyə yardımçı olur, tarixin ən müxtəlif problemlərinə dair diskussiyaların xarakteri və məzmunu, eləcə də sürətlə dəyişən dünyada tarix elminin vəziyyəti, elmi statusu, rolu və yeri haqqında təsəvvür yaradır.

Jurnal "XX əsrin siyasi arxivi" rubrikası altında M.Ə.Rəsulzadənin 1933-cü ilin noyabrında yazmış olduğu "Azərbaycanda milli hərəkat" adlı çox dəyərli tarixi əsərini (2002, №2, s. 11-32) və müəllif barədə irihəcmli

"Məhəmməd Əmin Rəsulzadə" məqaləsini (s. 3-11) dərc etmişdir. Məqalənin müəllifi tarix elmləri namizədi Salavat Midhətoviç İsaqovdur. Həmin yazıları oxuculara təqdim edirəm.

Şirməmməd Hüseynov,
BDU-nun professoru



## XX ƏSRİN SİYASİ ARXİVİ
## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

Siyasətçi, yazıçı və jurnalist Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakı quberniyası Bakı qəzasının Novxanı kəndində doğulmuşdur. İlk təhsilini bu kəndin axundu olan atasından almışdır[1]. Bakı Texnika Məktəbini bitirdikdən sonra inqilabi fəaliyyətə başlamışdır. 1904-cü ildə Zaqafqaziyada ilk müsəlman sosial-demokrat qrupu olan "Hümmət"in ("Enerji") təşkilatçılarından birinə çevrilmiş, 1909-cu ildə isə İrana gedərək oradakı inqilabi hadisələrdə fəal iştirak etmişdir. 1911-ci ildə Rusiya ordusu İrana daxil olanda o, Türkiyəyə keçmişdir. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş amnistiyadan bəhrələnərək Bakıya qayıtmış, "Müsavat" ("Bərabərlik") müsəlman demokratik partiyasının yaradılmasında iştirak etmişdir.

Azərbaycan tarixşünaslığı belə hesab edir ki, müsəlman xalqlarının və ölkələrinin milli azadlıq uğrunda mübarizədə həmrəyliyi ideyası "Müsavat" partiyasının ilk proqramından qırmızı xətlə keçmişdir. Azərbaycan milli hərəkatının liderləri islam həmrəyliyini yalnız ümumi ideya - müsəlman xalqlarının Avropa dövlətlərinin müstəmləkəçilik zülmündən qurtulması uğrunda birgə mübarizədə qarşılıqlı fəaliyyət və qarşılıqlı yardım kimi başa düşürdülər[2]. Bunun panislamizmlə heç bir əlaqəsi olmamışdır.

Fevral inqilabından sonra açıq fəaliyyətə keçən "Müsavat" partiyası tədricən Zaqafqaziyanın azərbaycanlı əhalisi arasında ən nüfuzlu təşkilata çevrilirdi. Bu partiyanın liderlərindən olan Rəsulzadə Azərbaycanın hüdudlarından kənarda da məşhurlaşmaqda idi. Ümumrusiya müsəlmanlarının qurultayında (Moskva, 1-11 may 1917-ci il) çıxışında o demişdi ki, gələcək dövlətçilik iki əsasa söykənməlidir. Bunlardan biri ümumbəşəri maraqlar, digəri isə ayrı-ayrı millətlərin

inkişaf azadlığıdır. Ona görə də müsəlmanlar özəlliklərinin qorunub-saxlanılması və xüsusi maraqlarının təmin edilməsi uğrunda mübarizə aparırlar.

Xalqların milli simalarının qorunması bütün bəşəriyyətin mənafeyinə xidmət etdiyi üçün zəruridir. O, xüsusi qeyd edirdi ki, hər bir xalq müstəqil şəkildə təşkil olunmalıdır. Onun fikrincə, islam bir "binadırsa", deməli, ayrı-ayrı müsəlman xalqları bu ümumi evin "otaqları" olmalıdır. Üstəlik, onun sözlərinə görə, "biz əvvəlcə differensiasiya olunmalı, sonra birləşməliyik". Rəsulzadə deyirdi: "Biz arzu edirik ki, dövlət idarəçiliyinin gələcək forması federativ əsaslara söykənən demokratik respublika olsun, amma onu da əlavə edirik ki, Rusiya dövlətinin böhranlı vəziyyətindən sui-istifadə etmək istəmədiyimiz üçün məsələnin həllini Məclisi-Müəssisanın çağırılmasına qədər təxirə salırıq[3]". O, müsəlman federalistlərinin ölkənin iflasını istəməyən liderləri sırasına məxsus idi və bu cəhdin özünün etnopsixoloji motivləri vardı.

Onlardan biri deyirdi: "Biz azərbaycanlıları, yəni Zaqafqaziya türklərini Rusiyada çox az tanıyırlar... Bir vaxtlar bizi rəsmi olaraq "Qafqaz tatarları" adlandırırdılar, bədxah köhnə əyyamdan miras qalmış bu istilah elə indinin özündə də yaşamaqda davam edir. Bizi tez-tez "Zaqafqaziya müsəlmanları" (Məhəmməd ümməti) deyə şərəfləndirirlər. Bu məfhumların heç biri qətiyyən məqbul deyil. "Tatar" adlandırmaqla "ehtiyatlı" rus dövləti sadəcə olaraq bizi qonşu türklərdən "qoruyub" "mühafizə edirdi". Müsəlmanlıq bizim milliyyətimizi yox, dini mənsubiyyətimizi bildirir. "Azərbaycan türklərinin" öz dili, ədəbiyyatı, musiqisi, tarixi var və "milli-mədəni fizionomiyaları o dərəcədə aydındır" ki, Rusiya Federativ Respublikasının bütün millətləri ilə ittifaqda bu xalq özünün öz müqəddəratını təyin etmək hüququna hörmət bəslənilməsini tələb etmək səlahiyyətinə malikdir"[4]. Versal sülh konfransında təqdim edilmiş memorandumda Rusiyadakı azərbaycanlıların



sayının 3 milyon nəfərə yaxın olduğu bildirilirdi[5].

Bir çox məsələlərdə mövqeləri üst-üstə düşdüyünə görə 1917-ci ilin iyununda "Müsavat" partiyası Türk Federalistləri Partiyası ilə birləşərək Azərbaycanda ən böyük siyasi qüvvəyə çevrildi, həm Bakı, həm də əyalətdə çoxluq təşkil edən müsəlmanlar arasında məşhurlaşdı və yenə də qısaca olaraq "Müsavat" adlanmaqda davam etdi. Onları birləşdirən cəhət dini zəmində deyil, milli özül üstündə federasiya yaratmaq istəyi idi ki, amerikalı azərbaycanşünas T. Sviyetoxovskinin fikrincə, müsavatçılığın əsl mahiyyəti də elə bundan ibarət idi[6]. 1917-ci ilin payızından Rəsulzadə "Türk Ədəmi-Mərkəziyyət "Müsavat" xalq firqəsi" MK-sının rəsmi lideri, yəni sədri olur.

Müsavat liderlərinin sovet hakimiyyətinin qurulmasına münasibətləri barədə tarixşünaslıqda müxtəlif yozumlar var. Sovet mənbələrində göstərilirdi ki, ilk vaxtlar müsavatçılar Bakıda vəziyyətin necə olacağını gözləyirdilər. Bildirilirdi ki, Bakıda və Zaqafqaziyanın digər yerlərində hakimiyyət məsələsində onların arasında fikir ayrılığı olmuşdur. Bakıda müsavatçıların qurultayında müvəqqəti hökumətin dəstəklənməsi və Bakı Şurasına nümayəndələr göndərilməsi haqqında qərar qəbul edilmişdi; eyni zamanda Yelizavetpolda, Tiflisdə və başqa şəhərlərdə müsavatçılar açıq şəkildə sovet hakimiyyətinin əleyhinə çıxış edirdilər[7]. Müasir Azərbaycan araşdırıcıları hesab edirlər ki, "Müsavat" partiyası oktyabr inqilabını rəğbətlə qarşılamış və ümid etmişdir ki, öz müqəddəratını təyin etmək və muxtar Azərbaycan dövləti yaratmaq mümkün olacaqdır. İnqilabdan sonrakı ilk günlərdə bolşeviklər və müsavatçılar Bakıda praktik olaraq cari dövrün bütün əsas məsələlərinə münasibətdə yaxın mövqe tutmuşlar. Lakin onların əməkdaşlığı xalis konyuktur xarakterdə olmuşdur[8]. Müsavatçıların taktikasının bu cür qiymətləndirilməsi Rəsulzadənin və onların digər liderlərinin Ümumrusiya Müəssislər Məclisinə üzv seçilməsinə dair

məlum faktla uyuşmur.

Müsavatçıların Xalq Komissarları Sovetinə münasibətdə seçdikləri taktikaya Türküstan hadisələri çox böyük təsir göstərmişdi. Dekabrın 13-də Türküstanın müsəlman əhalisi elliklə Türküstanın noyabrın 27-də Kokandada keçirilmiş fövqəladə müsəlman qurultayında elan edilmiş muxtariyyətinə (Rusiyanın tərkibində) dəstək verdiklərini bildirməyə hazırlaşırdı.

Bununla belə, yerli bolşeviklərin zəmanət vermələrinə baxmayaraq müsəlmanların bayram nümayişi dağıdıldı. Hakimiyyət şəhərin mərkəzində nümayişçilərin güllə baran edilməsinə fitva vermişdi. Bu tədbirdə məqsəd bir tərəfdən Türküstan muxtariyyatını "əksinqilabçı", anti-Rusiya və anti-rus hərəkat kimi rus əhalisinin gözündən salmaq, digər tərəfdən isə, müsəlmanları "müqəddəs müharibəyə" (yəni müsəlmanların öz əqidələrini müdafiə etməsinə) təhrik etmək idi. Bu, baş tutmadı.

Daşkənd hadisələri Müsavat ideoloqlarının etirazına və bolşevizmi tənqid etmələrinə səbəb oldu. Onlar bildirirdilər ki, "minimum proqram pərdəsi altında" bolşeviklər Türküstana çar rejiminin üsullarını gətirirlər; Daşkənd bolşevikləri "çar rejiminin ən pis dövrlərinin rus məmurlarıdır"; "müsəlmanlara öz müqəddəratını təyinetmə və öz taleyini qurma azadlığı verilərsə", xalq komissarlarının işi «yalnız müsəlmanları elə onların özlərindən qorumaqdan ibarət olacaq". Bakı müsavatçılarının 1918-ci ilin yanvarında Ümumrusiya Müəssislər Məclisinin dağıdılmasını və Brest-Litovsk sülh müqaviləsinin pozulmasını dəstəkləmələri də[9] bir fayda vermədi. 1918-ci il martın sonunda təkcə Bakıda əksəriyyəti azərbaycanlı olan 10 mindən çox insanın məhvi ilə nəticələnmiş faciəli hadisələr baş verdi. Bütün bunları sovet tarixşünaslığı müsavatçıların törətdiyi vətəndaş müharibəsi kimi təqdim edir, məhz müsəlmanlar üz döndərdiklərinə görə mart hadisələrinin burada sovet hakimiyyətinin sonunun başlanğıcı olması faktının üstündən sükutla keçirdi[10]. Bu hadisələrdən sonra müsavatçılar Azərbaycanın tam dövlət müstəqilliyi xəttini seçdilər.



Məlum olduğu kimi, Zaqafqaziya seymi 1918-ci ilin martında Zaqafqaziyanın Sovet Rusiyasından ayrıldığını, apreldə isə Zaqafqaziya Demokratik Federativ Respublikasının (ZDFR) yaradıldığını elan etmişdi. Lakin gürcü, erməni və azərbaycanlılar arasındakı milli ziddiyyətlər bu qurumun uzun müddət yaşamasına imkan vermədi. Tezliklə, 1918-ci il mayın 26-da, seym özünün buraxıldığını elan etdi və nəticədə ZDFR-in əvəzinə Gürcüstan və Ermənistan respublikaları yaradıldı, mayın 28-də isə müsavatçıların bazasında paytaxtı Gəncədə olmaqla Azərbaycan Respublikası elan olundu. Bu işin təşəbbüskarlarından biri - Rəsulzadə respublikanın ilk rəhbəri, Azərbaycan Milli Şurasının (parlamentin) sədri oldu. Bu parlamentə Ümumrusiya Müəssislər Məclisinə seçilmiş və onun buraxılmasını qəbul etməyən deputatlar daxil idilər. Parlament Bakıya köçəndən sonra onun 1918-ci il noyabrın 17-də keçirilmiş iclasının açılışında Rəsulzadə vurğulamışdı ki, "rus inqilabında millətlər mərkəzi hökumətdən öz ayrılmaz hüquqlarını almağa nail ola bilmirdilər və özləri özlərini təmsil edirdilər ki, bu da onları öz talelərini həll etmək işində təşəbbüsü ələ almağa sövq edirdi[11].

1918-ci il dekabrın 7-də ilk Azərbaycan parlamentinin iclasını açarkən Rəsulzadə demişdi: "Rusiyada xalqlara azad inkişaf və demokratik əsaslarla azad təyini-müqəddərat ümidi vermiş çevriliş bizim ümidlərimizi doğrultmadı. Ümumrusiya Müəssislər Məclisinin üzvü kimi Rusiyaya yola düşən, azad millətlərin birliyinin yaradılmasına ümid bəsləyən xalq nümayəndələri aldadıldı; Mərkəzi Rusiyada yaranmış anarxiya vəziyyəti dövlətin müstəqil şəkildə öz müqəddəratını təyinetmə və xalqların birliyi kimi yeni əsaslara söykənərək yenidən təşkilinə yönələn hər hansı iş imkanını aradan qaldırırdı və onların hər biri üçün sosial-siyasi hüquqlarını əldə etmək baxımından yalnız

bircə yol qoyurdu: müstəqilliyin elan edilməsi. Başqa çıxış yolu yox idi... Bizim Rusiyadan ayrılmağımız Rusiyaya qarşı ədavət aktı deyildi. Biz rus xalqından pislik görməmişik, o da despotizm zülmünə bizdən az məruz qalmamışdır, bizim indiki hərəkətimiz isə Rusiyada hökm sürən anarxiya nəticəsində meydana gəlmiş başqa zülmlə izah edilir"[12]. Belə bir etnoregionçuluq psixologiyası o zaman ölkənin öz xalqının psixologiyasını bilən müsəlman liderlərinin əksəriyyətinə xas idi.

Azərbaycan parlamentinin 1919-cu ilin fevralında, təxminən bir il müstəqillik şəraitində yaşadıqdan sonra keçirilmiş yığıncağında Rəsulzadə "Müsavat" fraksiyasının lideri kimi çıxış edərkən Müsavat ideologiyasının Azərbaycan türkləri arasında dərkedilmə səviyyəsinə toxunaraq bildirmişdi: "Biz türklərik (yəni azərbaycanlılarıq - S.İ.), lakin aramızda fərq var. Güman edirik ki, türklərdə milli şüur hələ kifayət dərəcədə deyil və xalqa bu şüuru aşılamağı özümüzə borc bilirik"[13]. Özünə bu cür tənqidi yanaşma o demək idi ki, müsavatçılıq hələ də geniş xalq kütləsinin dərinliklərinə nüfuz etməyib və bunun üçün, təbii ki, müəyyən vaxt tələb olunur. Bir sıra tədqiqatçılar hesab edir ki, o zaman əksər azərbaycanlıların psixologiyası dünya müsəlman icmasının (ümmətin) həm xaricdəki, həm də yerlərdəki səviyyəsinə uyğun idi, dünyəvi hökumətə münasibətdə tipik laqeydlik özünü göstərirdi, yəni əhalinin çox hissəsində Azərbaycan dövlətçiliyi ideyası kök salmamışdı, milli özünüdərk əvəzinə onlarda bir yerdə yaşayan və eyni din, birgə sosial qayda əsasında birləşmiş insan kütləsinə məxsusluq hissi daha güclü idi. Belə ki, onların şüuru və kimliyi yenicə meydana gələn hansısa milli duyğudan çox ümmət adət-ənənələrinə söykənirdi[14]. Belə təsəvvürlər inandırıcı əsaslardan məhrumdur. Xalq kütlələrinin psixologiyasının məxsus etnokonfessional (etnik-dini - red.) konstantların (sabit kəmiyyətlərin - red.)



mövcudluğu faktına diqqət yetirmək kifayətdir.

Rəsulzadə "Müsavat" partiyasının 2-ci qurultayında (Bakı, 2-11 dekabr 1919-cu il) mahiyyətcə bu barədə bəhs edərək demişdi: "Türk olaraq biz işıqlı gələcəyə ümidimizi heç vaxt itirmirdik, İnanırdıq ki, ideyalarımız həyata keçəcək və bir vaxtlar əcdadlarımızın həyatını qorumuş bu inam indi də bizi xilas etdi... Bir müsəlman olaraq biz həmişə inanırdıq ki, siyasi hüquqlarından müvəqqəti məhrum edilmiş, ölü təsəvvürü bağışlayan xalqımız yaxın gələcəkdə diriləcək və öz layiqli yerini tutacaqdır"[15]. Çağdaş Azərbaycan araşdırıcılarının qeyd etdikləri kimi, Azərbaycan "qərbçiliyi" hələ XIX əsrin fəlsəfi, ictimai-siyasi və etik-estetik fikrində özü haqqında Azərbaycan cəmiyyətini dəyişdirməyə qadir olan real qüvvə kimi danışırdı. XX əsrin əvvəllərində də milli ziyalılar mühitində "Qərbpərəst oriyentasiya" üstünlük təşkil edirdi[16].

Azərbaycanda milli müstəqillik, xalq demokratiyası prinsipləri əsasında milli dövlət, azad siyasi həyat yaradılması ideyalarını Azərbaycan ideoloqlarından H.Zərdabi (1837-1907), M.Axundov (1812-1878) hələ XIX əsrdə irəli sürmüşdülər. Müasir Azərbaycan tədqiqatçıları hesab edirlər ki, "azərbaycançılıq" milli burjuaziyanın azərbaycanlıların dirçəlməsinə, kökündə pantürkizm, panislamizm və paniranizm elementləri olsa da, bunlardan seçilən, xüsusi ictimai-siyasi cərəyana əsaslanan ideologiyasıdır[17]. XX əsrin əvvəllərində Rusiya imperiyasının digər müsəlman xalqları üçün də avropalaşmaya meyl səciyyəvi idi.

Azərbaycan Respublikasının süqutundan az əvvəl - 1920-ci ilin martında - parlamentin iclasındakı çıxışında Rəsulzadə qeyd edirdi ki, Rusiya inqilabı ilə rus inqilabını qarışdırmaq lazım deyil. "Üç il əvvəl alovlanmış Rusiya inqilabı öz nəticələrini verdi və biz şahidik ki, xalqların öz müqəddəratını təyinetmə haqqında bu inqilabın ortaya atdığı şüar tam gerçəkləşmişdir. Hazırda rus xalqının içində baş verən inqilabı rus milli

inqilabı kimi dəyərləndirmək gərəkdir. Rusiya inqilabı türk (Azərbaycan - S.İ.) xalqı üçün xilasedici xarakter daşıyırdı və onu çarizm dövründə boğulduğu tilsimlənmiş dairədən xilas etdi. Rusiya inqilabına bizim baxışımız belədir"[18].

1920-ci il aprelin sonunda XI ordu Azərbaycana yaxınlaşanda qırmızılar parlamentdən ultimativcəsinə tələb etmişdilər ki, səlahiyyətlərinin icrasından əl çəksin. Parlamentin aprelin 27-si axşamı keçirilmiş fövqəladə iclasında Rəsulzadə "daxili müharibəyə yol verməmək üçün" bu tələblə razılaşmaq lazım gəldiyini bildirmişdi. Heç bir təqib olmaması şərtilə hakimiyyətin Azərbaycan kommunistlərinə təhvil verilməsi haqqında qərar qəbul edildi[19]. Lakin Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, bir çox başqaları kimi, Rəsulzadə də gizlənməli oldu. Tutulub həbs olunsa da, İ.V.Stalin 1920-ci ilin oktyabrında Bakıda olarkən onu güllənmədən xilas etdi.

Onlar hələ birinci rus inqilabı zamanı Bakıda tanış olmuşdular. O zaman hakimiyyət orqanları Stalini həbs etmək istəyirdilər, ancaq o vaxt artıq məşhur jurnalist olan Rəsulzadə onu evində gizlədərək həyatını xilas etmişdi.

Stalin Bakı həbsxanasına onun yanına gələrək demişdi: "Siz mənim köhnə yoldaşımsınız. Çarizmə qarşı birgə mübarizə aparmışıq. Ona görə də buraya gəlmişəm. Çarizmə qarşı mübarizədə, ümumən inqilabi hərəkatda nə qədər böyük işlər gördüyünüzü bilirəm. Siz bizim inqilabımıza lazımsınız, Sizi nə güllələmək, nə də həbsxanada çürütmək olmaz... Dünyanın istədiyiniz yerinə gedə bilərsiniz... Seçiminizdə sərbəstsiniz"[20]. Stalin onu əvvəlcə özü ilə Moskvaya aparır, Rəsulzadə burada iki ilə yaxın, əsasən, elmi fəaliyyətlə məşğul olur. 1922-ci ilin yazında, Stalinin göstərişi ilə onu Xalq Millətlər Komissarlığı nəzdindəki Ümumrusiya Şərqşünaslarının Elmi Cəmiyyətinin tərkibinə daxil etdilər. 1922-ci ilin yazında o, Petroqraddan Finlandiyaya qaçır, sonra Almaniyaya, oradan Parisə,



Parisdən İstanbula gedir.

1923-cü ildə Rəsulzadənin İstanbulda türk dilində "Azərbaycan Cümhuriyyəti" adlı kiçikhəcmli kitabı çap edilir. Bu kitabda, rus türkoloqu A.İ.Samayloviçin qənaətinə görə, "ən yeni dövrdə islam dünyasının bir guşəsində baş vermiş ictimai-siyasi hərəkatların tarixi üçün qiymətli material" var. Başqa bir tarixçinin fikrincə, bu kitabda Rəsulzadə, emosional üslubda olsa da, bu dövlətin, respublikanın, müsəlman regionlarının birində dünyəvi demokratik dövlətin yaradılmasının ilk təcrübəsinin dramatik tarixini düzgün əks etdirmişdir. Sovet tarixşünaslığı Stalinin Rəsulzadənin fəaliyyətini "ifşa etmək" göstərişini rəhbər tutaraq onun əsərlərini təhrif edilmiş şəkildə təqdim edirdi[21]. Rəsulzadəni burjua millətçisi, panislamist, pantürkist və s. adlandırırdılar.

1923-1927-ci illərdə İstanbulda Rəsulzadənin redaktorluğu ilə iki həftədə bir dəfə nəşr edilən "Yeni Qafqasiya" jurnalı bütün türk və qismən Qafqaz mühacirətinin ilk mətbuat orqanı idi. Bu jurnalın yanvar sayında (1924) onun Stalinə məktubu dərc edilmişdi. Məktub belə başlanırdı: "Hörmətli Stalin! Dostlarım mənim xüsusi şöbənin həbsxanasından buraxılmağıma çox təəccübləndilər... Bu möcüzə Sizin sayənizdə mümkün olmuşdu, məhz Siz bizim keçmiş dostluğumuzu xatırlayaraq məni oradan çıxartdınız". Daha sonra sovet Rusiyasında baş verən hadisələr, xüsusən bolşeviklərin müsəlman xalqları ilə bağlı milli siyasəti kəskin tənqid edilirdi"[22].

Mövcudluğunun beşinci ilində jurnal sovet dövləti ilə münasibətləri qəlizləşdirmək istəməyən kamalçı hökumət orqanları tərəfindən qapandı. Azərbaycan mühacirəti mühitində Rəsulzadənin vəziyyəti o qədər də yaxşı deyildi, Ona qarşı çox ciddi ittihamlar irəli sürülürdü, bunların ən başlıcası Azərbaycan Respublikasının kədərli aqibəti idi.

Parisdən Türkiyənin xarici işlər naziri T.Rüştinin adı-

na göndərilmiş məxfi məlumatda (iyun 1928-ci il) onun müəllifləri Rəsulzadəni Azərbaycan dövlətinə başçılıq etmiş və "onu şərəfsizcəsinə bolşeviklərə təhvil vermiş" "Müsavat" lideri kimi nüfuzdan salmaq istəyirdilər[23] .

1931-ci ilin sonunda sovet diplomatiyası Türkiyə hakimiyyət orqanlarının Azərbaycan mühacirətinin digər dövri nəşrlərini bağlamasına da nail oldu: Azərbaycan mühacirətinin mərkəzi tezliklə Türkiyədən Varşavaya köçürüldü. Rəsulzadəni Polşa hökumətinin rəhbəri Y.Pilsudskiyə təqdim etdilər (onun qardaşı qızı Vanda ilə Rəsulzadə arasında yaxın münasibətlər vardı, onlar bir yerdə yaşayırdılar[24]). Rəsulzadə öz fəaliyyətini digər Avropa ölkələrində, xüsusən Almaniya və Fransada genişləndirərək naşirlik və nəzəri-təbliğati işlə məşğul olurdu.

Onun bəlkə də ən məşhur kitabları 1930-cu ildə Parisdə nəşr edilmişdir. Onlardan biri (fransız dilində) Azərbaycanın 1918-1920-ci illərdə öz müstəqilliyi uğrunda apardığı mübarizəyə həsr edilmişdi[25], o biri isə "Panturanizm haqqında. Qafqaz probleminə dair" adlı topludan ibarət idi; tarixşünaslıq ikinci kitabı Rəsulzadə yaradıcılığında ən dəyərli əsər hesab edir. Onun adının pantürkizm nəzəriyyəçiləri sırasına daxil edilməsinə məhz bu kitab əsas vermişdir.

20-30-cu illərin Azərbaycan mühacirət tarixşünaslığında qeyd edilirdi ki, XX əsrin əvvəllərinə yaxın həm ümumtürk miqyasında, həm də Azərbaycan daxilində milli hərəkat məxsusi cizgilərini kəsb etməyə başlamışdı. Bu dövr türk xalqlarının tarixinə milliyyətdən millətə keçid kimi daxil olmuşdur. Rəsulzadə 20-ci illərdə yazırdı ki, birinci anlayış dil, din, etnos, tarix, coğrafiya, iqtisadiyyat və siyasət amillərinin təsiri ilə formalaşmış mühiti bildirir, ikincisi isə bu mühitdə ümumi şüurun və kollektiv iradənin olduğunu göstərir[26].

Rəsulzadənin başçılıq etdiyi "Müsavat" partiyası mühacirətdə uzun müddət birliyini saxlaya bilmişdi,



lakin 1934-cü ildə, Azərbaycanın başqa bir lideri - Ə.M.Topçubaşov vəfat edəndən sonra Azərbaycan təşkilatlarında böyük bir parçalanma baş verdi, Milli Mərkəz (ona da Rəsulzadənin rəhbərlik edirdi) və Sülh nümayəndə heyəti dağıldı; Rəsulzadə eyni zamanda Müsavatın Polşanın Xüsusi Xidmət İdarəsi (1929-cu ildə SSRİ-yə qarşı kəşfiyyat fəaliyyəti aparmaq üçün yaradılmış 2 №-li ekspozitura - Polşa Baş Qərargahının II Şöbəsinin (kəşfiyyat) bölməsi) ilə əlaqəsi olan Varşava qrupunun da rəhbəri idi[27].

1934-cü il yanvarın 12-də Rəsulzadənin aşağıda mətni verilən "Azərbaycanda milli hərəkat" məqaləsi 2 saylı ekspozituraya daxil olur. Onun 1-ci səhifəsində 1933-cü il noyabrın 19-da Varşavada yazıldığı göstərilmişdir. Bu sənəd[28] onun Polşa kəşfiyyatı üçün hazırladığı çoxlu materiallardan biri idi. Aydın məsələdir ki, bu təşkilatla təkcə müsavatçılar deyil, Rusiyadan çıxmış digər şəxslər də əməkdaşlıq edirdilər.

Polşa kəşfiyyatçıları "Prometey" təşkilatı vasitəsilə Fransa hökuməti, ictimai-siyasi təşkilatlar və mətbuatla əlaqə saxlayaraq 30-cu illərin ikinci yarısında azərbaycanlı Rəsulzadə və M.Y.Mehdiyevdən başqa, ukraynalı A.İ.Udoviçenko, A.Y.Şulgin, gürcü N.N.Jordaniya, A.İ.Çxenkeli, Y.P.Qeqeçkori, kabardin M.Q.Sunş, qazax M.Çokayev, kalmık Ş.Balinov və başqaları vasitəsi ilə də iş görürdülər. 1936-cı il yanvarın 17-də Parisdəki "Prometey" klubunda "Müasir Azərbaycan ədəbiyyatı" mövzusunda məruzə edən Rəsulzadə qeyd etmişdi ki, "Balkanlarda müharibənin başlanması, Rusiya hökumətinin aşkar qərəzli siyasəti və təkcə bir dövlət kimi Türkiyəyə deyil, həm də ümumən türkçülüyə qarşı kin və ədavətini gizlətməyən rus cəmiyyətinin şovinist ovqatı bütün Azərbaycanda milli duyğuların və siyasi hiddətin coşmasına səbəb olur... Azərbaycan dünya müharibəsi dövrünə belə qıcıqlanmış vəziyyətdə daxil olur. Müharibə bu qıcığı daha da gücləndirir"[30].

1936-cı il avqustun 9-da Polşanın Parisdəki diplomatı və kəşfiyyatçısı İ.Skarjinskiyə göndərdiyi müşayiət məktubunda Rəsulzadə izah edirdi ki, «əlyazma formasında geniş materiallar göndərir» və bilir ki, bu, «müəyyən çətinlik törədəcək, lakin zamanın tələbinə, tələsikliyə və əl altında yazı makinası olmadığına görə bununla kifayətlənmək lazım gəlmişdir». Söhbət bu materallardan gedirdi: «Müsavat» partiyasının 1936-cı il avqustun 5-dən 7-dək keçirilmiş konfransı haqqında məlumat. Bu konfransda Rəsulzadə «milli mübarizədə» partiyanın siyasəti barədə məruzə etmişdi. Konfrans «Müsavat» partiyasının siyasi platformasını, partiyanın xarici və daxili siyasətinə dair tezislər və bir sıra başqa qətnamələr işləyib-hazırlamışdı. Partiyanın siyasi platformasında deyilirdi ki, «müsavatçılıq respublika, azadlıq və milli müstəqillik ideallarına sadiq qalan, ümumbəşər sivilizasiyasının və ulu türk mədəniyyətinin yüksək idealları ilə üzvi surətdə bağlı olan Azərbaycan vətənpərvərliyidir»[31].

Rəsulzadə "Müsavat" partiyasının proqramını şərh edərək yazırdı: "Partiyamız, keçmiş rus imperiyasının gerçəkliyindən çıxış edərək milli-yerli muxtariyyətə əsaslanan federativ xalq respublikası formasında rus respublikasının yaradılmasını tələb edirdi. Partiya eyni zamanda muxtar Qırğızıstan (Qazaxıstan - C.İ.), Başqırdıstan, Türküstan və Azərbaycan üçün milli-yerli müstəqillik, Volqaboyu və Krım üçün milli muxtariyyət tələb edirdi. O zaman nəzərdə tutulan bu məqsədlər etiraz və protestlə qarşılansa da, bunlar hazırda fakta çevrilib, yəni müəyyən qüsurları olsa da, yuxarıda göstərilən muxtariyyətlər faktik olaraq mövcuddur. Bu qurumlar içində Azərbaycan təkcə muxtar qurum olaraq qalmadı, həm də yetərincə müstəqil oldu"[32].

"Azərbaycanın inqilabi "Müsavat" partiyası" adlı qeydlərində Rəsulzadə polşalı ekspertlərə izah edirdi ki, "ideologiyası və maksimum proqramı etibarilə "Müsavat" türk partiyasıdır. Ancaq özünün türk ide-



ologiyasına və türkpərəstlikdə ittiham edilməsinə baxmayaraq, o, heç zaman Qafqaz xalqlarının bir siyasi bütöv kimi birləşməsini inkar etməmişdir. Bu məqsədlə 1919-cu ildə partiyanın 2-ci qurultayında Qafqaz konfederasiyası haqqında qərar qəbul edilmişdi və bunun arxasınca həm Bakıdakı Ermənistan-Azərbaycan konfransında, həm də Tiflisdəki Ümumqafqaz konfransında Azərbaycan dövlətinin nümayəndələri Qafqaz xalqlarının federativ əsaslarla birləşməsi zərurətinə dair bəyanatlarını elan etmişdilər.

Partiyanın fikrincə, Qafqazın bu cür, siyasi forma kimi, birləşməsi onun Rusiya müdaxiləsindən və istilasından azad edilməsinə imkan yaradır, türk xalqlarının bu mənfur Rusiya imperializmindən xilas olması maraqları ilə ziddiyyət təşkil etmirdi; əksinə, Şərqdə möhkəm sülhün qarantı və Rusiyanın cənuba nüfuz etməsinin qarşısında maneə rolunu oynayaraq türk xalqlarının birəsrlik düşmənlə mübarizəsində ən yaxşı amil ola bilər". Rəsulzadə sözünə davam edərək yazırdı ki, "Müsavat xalqın, geniş xalq kütlələrinin, kiçik burjuaziyanın, kəndlilərin və milli ziyalıların partiyasıdır. Partiya türk fəhlə sinfinə də böyük təsir göstərirdi[38].

Rəsulzadə müsavatçılığın nəzəri məsələləri ilə məşğul olmaqla yanaşı, ali dövlət strukturlarının nümayəndələri və kütləvi informasiya vasitələri ilə də əməkdaşlıq edirdi. 1937-ci il mayın 2-dən 22-dək Berlinə səfəri haqqında Müsavatın Mərkəzi Komitəsinə hesabatında Rəsulzadə məlumat vermişdi ki, NCDAP (Almaniya Nasional-Sosialist Fəhlə Pariyası - red.) Xarici Siyasət İdarəsinin, Almaniya Təbliğat Nazirliyinin və s. yüksək vəzifəli məmurları ilə görüşmüşdür. Bu görüş və söhbətlərdən aldığı ümumi təəssürat ondan ibarət idi ki, bu dairələr sovet Rusiyasında milli problemlə çox ciddi şəkildə maraqlanırlar. Mayın 21-də Humbolt Ali Məktəbinin əzəmətli klubunda onun bu hesabatını dinləməyə ölkənin müxtəlif idarə və təşkilatlarını, elm, mətbuat və ictimai-siyasi dairələri, eləcə

83845



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

də Rusiya, İran və Türkiyə mühacirətinin 200 nümayəndəsi gəlmişdi. "Azərbaycan məsələsi" mövzusunda məruzə ilə çıxış edəcək Rəsulzadəni yığıncağın sədri, Almaniyanın məşhur dilçi türkoloqu və diplomatı Q.Yaşke öz giriş nitqində təqdim etmişdi. Rəsulzadənin düşüncələri nasist mətbuatının ("Volkischer Beobachter") diqqətindən yayınmadı və 1938-ci ildə həmin məruzə Berlində "Das Problem Aserbaidshan" adı ilə kitabça şəklində çap edildi. 1939-cu ildə Almaniya Polşanı işğal etdikdən sonra Rəsulzadə Türkiyəyə getdi, lakin orada çox qalmadı. Berlində onu unutmamışdılar. Hitlerlə görüşündə o, Azərbaycanda işğalçı hökumətə daxil olmaqdan imtina etdiyinə görə Almaniyadan çıxıb Rumıniyaya getdi[34], bir qədər sonra Almaniyaya qayıtdı, 1947-ci ildən isə Türkiyədə məskunlaşdı. Stalinin ölümündən sonra burada onun haqqında xatirələrini dərc etdirdi. Rəsulzadə 1955-ci il martın 6-da Ankarada vəfat etdikdən sonra bir neçə kitabı (fransız, türk, alman və polyak dillərində) qalmışdır.

"Yenidənqurma" dövründə onun haqqında çox yazdılar[35], Azərbaycanda əsərləri çap olunur[36], adı Bakı Dövlət Universitetinə verilib. Doğulduğu Novxanı kəndində ucaldılmış əzəmətli heykəlinin yanında Rəsulzadənin ad günündə müasir siyasətçilərin təşkilatçılığı ilə mitinqlər keçirilir. Lakin Azərbaycan tarixçilərinin "Rəsulzadə şəxsiyyətini bu dövrdə kəşf etdiklərini"[37] söyləyən tədqiqatçını haqlı saymaq çətindir. Azərbaycan tarixində onun önəmli rol oynaması hamıya bəllidir, bu faktı hətta sovet tarixşünaslığı da etiraf edirdi.

Azərbaycan siyasətçilərinin və politoloqlarının polemikalarında onun adından indinin özündə də tez-tez bir arqument kimi istifadə olunur. Məsələn, Azərbaycanın keçmiş prezidenti A.N.Mütəllibov yazır ki, Rəsulzadə hökuməti yalnız bolşeviklər Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamağı vəd etdikdən sonra



hakimiyyəti müqavimətsiz təslim etdi[38]. Azərbaycan politoloqu R.Ağayev qeyd edir ki, əvvəllər panturanizmin (pantürkizmin) banilərindən biri olmuş Rəsulzadə "artıq 30-cu illərdə "Panturanizm haqqında" kitabında bu "izm"in perspektivsiz olduğunu etiraf etmişdi". Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamında (30 yanvar 1998-ci il) deyilir ki, 23 ay mövcud olmuş respublika Şərqdə ilk demokratik quruluş yaratmış və Azərbaycan xalqının tarixində dərin iz buraxmışdır[39].

Təqdim olunan yazıda Rəsulzadə Azərbaycanda bolşevik hakimiyyətinin necə "qurulması", onun ardınca hansı mübarizənin gəlməsi haqqında xeyli naməlum fakt barədə məlumat vermişdir. Bununla birlikdə polşalıların diqqətini Azərbaycanın xalq təhsili, milli ədəbiyyatı və mədəniyyətinin gerçək nailiyyətlərinə yönəldə bilməsi onun yüksək dərəcədə obyektivliyinə və Azərbaycan xalqının psixologiyasını dərindən etnososial təhliletmə qabiliyyətinə malik olduğuna dəlalət edir. Ancaq mühacir mətbuatında bu tipli material sovet quruluşunun lehinə bir arqument kimi qiymətləndirilə bilərdi ki, bu da müsavatçıların lideri üçün yolverilməz idi.

XX əsrin ən məşhur azərbaycanlılarının siyahısına daxil olsa da, onun siyasi karyerasının, xüsusən xaricdəki fəaliyyətinin bir çox cəhətləri hələ də lazımınca öyrənilməmişdir.

İsaqov Salavat Midhətoviç,
tarix elmləri namizədi,
Rusiya EA Tarix İnstitutu

# Qeydlər

1. Аббасов А. Ислам в современном Азербайджане: образы и реалии. В кн.: Азербайджан и Россия: общества и государства. М., 2001, с. 304.

2. Балаев А. Азербайджанское национальное движение: от «Мусавата» до Народного фронта. Баку, 1992, с. 5.

3. Утро России. 4.V.1917.

4. Свободный Союз (Киев), 1917, №1, с. 4-5

5. Айда А. Садри Максуди Арсал. Пер. с турецкого. М., 1996, с. 255.

6. Свиетоховский Т. Русский Азербайджан. 1905-1920 – Хазар (Баку), 1990, №2, с.91.

7. Азимов С. Великий Октябрь в Азербайджане. Баку, 1987, с.206-207, 209.

8. Балаев А. Азербайджанское национально-демократическое движение: 1917-1920 гг. Баку, 1990, с. 13, 14, 15; Исмаил М. История Азербайджана. Баку, 1995, с. 93.

9. Ишханян Б. Контрреволюция в Закавказье. Ч.1, Баку, 1919, с. 62, 72, 73.

10. Балаев А. Азербайджанское национально-демократическое движение, с. 18.

11. Азербайджанская Республика: Док. и м-ты. 1918-1920 гг. Баку, 1998, с.65, 212.

12. Там же, с. 92.

13. Там же, с. 154.

14. Свиетоховский Т. Русский Азербайджан. 1905-1920 – Хазар (Баку), 1990, № 3, с. 60; Суни Р. Национализм и демократизация в Русской революции 1917 г. В кн.: Анатомия революции. СПб, 1994, с. 289-290; Смит М. Память об утратах и азербайджанское общество. В кн.:Азербайджан и Россия,с. 91.

15. Азербайджанская Республика, с. 382.

16. Искендеров С., Байрамов Т. Культура и этнос. – Центральная Азия и Кавказ, 2000, № 1(7), с. 220.

17. См.: Дашдамиров А.Ф.оглы. Национальная идея и этничность. М., 1996, с. 34, 36.

18. Азербайджанская Республика, с. 494.

19. Там же, с. 537, 539.

20. Расулзаде М.Э. Воспоминания о И.В.Сталине – Восточный экспресс, 1993, № 1, с. 46. См. также: Султанбеков Б.Ф., Малышева С.Ю. Трагические судьбы. Казань. 1996, с. 119.

21. Звезда Востока (М), 1924, № 1, с. 20; «Обозвать азербайджанским погромщиком…». В кн.: Султанбеков Б. История Татарстана. Казань, 1995, с. 161-162.

22. Расулзаде М.Э. Ук. соч., с. 42; Гусейнов Ч. Доктор N. Кн. 2, М., 1998, с. 137.

23. Ətraflı məlumat üçün bax: Караев А. Азербайджанская эмиграция 1920-1930 гг. Канд. дисс. М., 1991; Центр хранения историко-документальных коллекций – ЦХИДК) – (Tarixi-sənədli Kolleksiyaların Caxlanma Mərkəzi – TSKSM), фонд 461, сийащы 1, иш 232, вяряг 20.

24. Rasulzade R. Mammad Amin Rasulzade. Founding Father of the First Republik/ – Azerbaijan İnternational, Autumn (Payiz) 1999, (7.3);

http://www.azer.com/aiweb/categories/magazine/73articles/73Rasulzade.html

25. Rassulzade M.E. L'Azerbaijan en lutte pour l`independance (Azərbaycan müstəqillik uğrunda mübarizədə). Paris. 1930.

26. Мамедзаде М.Б. Азербайджанское национальное движение. – Хазар, 1991, №1, с. 36, 37.

27. TSKSM, фонд 309, сийащы 1, иш 158, вяряг 79.

28. Yenə orada, фонд 461, сийашы 2, иш 97, вяряг 1-13. Əsli. Avtorizə edilmiş makina yazısı.

29. «Rusiya əsarətində olan xalqlar liqası – "Prometey" cəmiyyəti»ni Polşa Baş Qərargahının II bölməsi və Polşa XİN-in Şərq şöbəsi Y.Pilsudskinin bütün mühacirət qruplarının birləşdirilməsi və onlardan SSRİ-yə qarşı istifadə edilməsi ilə baglı tapşırığına əsasən, 1928-ci ildə Varşavada təsis edilmişdi. Təşkilata Azərbaycan, Don, Kareliya, Gürcüstan, Volqaboyu, Krım, Kuban, Şimali Qafqaz, Türküstan, Ukrayna və b. bölgələrin nümayəndələri daxil idi.

30. TSKSM, fond 461, siyahı 1, iş 329, vərəq 3; siyahı 2, iş
38. Bu məruzə Berlində (Resul-zade M.E. Çağdaş Azerbaycan Edebiyatı. Berlin, 1936) və Varşavada (Resul-zade M.E. Literatura Azerbaydzanu. – Wschod-Orient, 1936, No: 2-3, p. 63-64) nəşr edilmişdi.
31. TSKSM, fond 461, siyahı 2, iş 78, vərəq 35, 36.
32. Yenə orada, vərəq 105, 106
33. Yenə orada, vərəq 116-117, 125, 126.
34. Yenə orada, iş 75, vərəq 5, 12. Rasulzade R. Op.cit.
35. Məsələn, bax: Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991.
36. Rəsulzadə M.E. Azərbaycan Respublikası. Bakı, 1990; Yenə onun. Stalinlə söhbətlərdən yaddaşda qalanlar. Bakı, 1991; Bu memuarlardan fraqmentlər rusca da çap edilmişdir: Расулзаде М.Э. Воспоминания о И.В.Сталине – Восточный экспресс, 1993, № 1, с. 41-59; 1994, № 1, с. 41-43) ; yenə onun: Azerbaycan şairi Nizami. Bakı, 1997; yenə onun: Əsrimizin Siyavuşu. Bakı, 1991; yenə onun: Əsərləri, cild 1 (1903-1909). Bakı, 1992 və başqaları.
37. Smit M. Göstərilən əsəri, s. 102.
38. //www.Mutalibov.ru/politic/tocka/karabah.shtm1. Qırmızı Ordu Bakıya Azərbaycan qoşunlarının 1920-ci il martın sonunda üsyan qaldırmış daşnaklara qarşı mübarizə aparmaq üçün Qarabağa cəmləşdiyi bir vaxtda daxil olmuşdu (Корнелл С. Конфликт в Нагорном Карабахе. В кн.: Азербайджан и Россия, с. 436).
39. Российская газета. 31.X.1996; Азербайджанская Республика, с. 7.



## AZƏRBAYCANDA MİLLİ HƏRƏKAT

Azərbaycanda milli hərəkat ideya mənbələrinə görə Şərqin milli-azadlıq ideyaları ilə Qərbin mədəni-demokratik cərəyanlarını özündə birləşdirir.

Müsəlman və türk elementləri ilə məskunlaşmış, nə mədəni, nə də dini baxımdan Rusiya ilə heç bir ortaq cəhəti olmayan və Rusiyanın yalnız silah gücünə işğal edilmiş Qafqaz Azərbaycanı mənən heç zaman rus dövlətçiliyi ilə barışmayıb, çünki o dövlətçiliyin ənənələri, məlum olduğu kimi, müsəlman və türk aləminə ədavət üzərində qurulmuş, bunun da nəticəsində panislamizm və pantürkizm ideyaları bu aləmdə həmişə canlı maraq doğurmuşdur.

Zaman keçdikcə, cəmiyyət qüvvələri inkişaf etdikcə, get-gedə əhalinin daha geniş dairələri ictimai hərəkata qoşulduqca müsəlman Şərqinin başqa yerlərinə nisbətən milli hərəkat Azərbaycanda daha tez Avropa xarakteri almışdır.

Tarixən Şərq ədəbiyyatına Füzuli[1] (xristian erasının XV əsrinin sonlarında böyük türk şairi) kimi məşhur, parlaq ulduzlar vermiş Azərbaycan ədəbiyyatı artıq XIX əsrin əvvəllərində modernləşməyə başlayır. Böyük novator Mirzə Fətəli Axundzadə[2] anlaşıqlı xalq dilində yazdığı ölməz əsərləri ilə Azərbaycan cəmiyyətinə yeni təkan verir. O, yeni formalı yaradıcılığında (Müsəlman dünyasında ilk dram əsərlərini o yazmışdır) XVIII əsrin liberal-maarifçi ideologiyasından qaynaqlanan tam yeni ideyalar təbliğ edir.

Mirzə Fətəlidən başlayaraq Azərbaycan ədəbiyyatı Qərb ideyalarına meyl etməyə və həyat hadisələrinə tənqidi yanaşmağa başlayır.

Mirzə Fətəlidən sonra liberalizm yönlü böyük şairlər, yazıçılar və dramaturqlar nəsli meydana gəlir və onlar öz qarşılarına xalqda Avropa anlayışlarına həvəs

yaratmaq, onun daxilində ictimai özfəaliyyət hissi oyatmaq vəzifəsini qoyurlar.

1875-ci ildə Bakı şəhərində (Azərbaycanın paytaxtı) Azərbaycan dilində ilk qəzet meydana gəlir; bu, Rusiyada nəşr olunan ilk türk-müsəlman qəzeti idi. Həsən bəy Zərdabinin[3] bu "Əkinçi" qəzetində Mirzə Fətəlinin maarifçilik ideyaları mütəmadi qaydada müdafiə edilirdi. Mirzə Fətəli və onun davamçıları "Əkinçi"yə qədər bu ideyaları mücərrəd şəkildə, müəyyən siyasi tendensiya olmadan yaydıqları halda Azərbaycanın ilk publisistinin yazılarında bu ideyalar konkret siyasi məqsədə xidmət edirdi. "Azərbaycanlılar müasir sivilizasiyadan bəhrələnməli və Avropa mədəniyyəti ilə ünsiyyətdə olmalıdırlar, əks halda həmişəlik əsarət altında qalmağa məhkumdurlar..."[4].

Mirzə Fətəlinin mücərrəd yazılarına səbrlə yanaşan çar hökuməti, ilk siyasi qəzetin istiqamətinə laqeyd qala bilməzdi. "Əkinçi" bağlandı. Onun redaktoruna Bakıda Müsəlman Xeyriyyə Cəmiyyəti yaratmağa da icazə verilmədi.

1905-ci ilə qədər Azərbaycan ictimaiyyəti çar senzurasının tikanlı pəncəsində idi. Yalnız çar ordusu Mancuriyada məğlub olduqdan sonra baş vermiş birinci rus inqilabı sayəsində azərbaycanlıların ictimai həyatında yeni dövr başlanır. Gündəlik qəzetlər və müxtəlif dövri nəşrlər meydana gəlir. Ədəbiyyat, musiqi və səhnə rəngarəng formalarda inkişaf edir. Mətbəələr açılır; müxtəlif ictimai-maarifçi cəmiyyətlər, siyasi dərnəklər və partiyalar təşkil olunur. Möhkəm zəmin üstündə dayandığını hiss edən ictimai hərəkat açıq-aşkar milli xarakter alır, bütün imperiyada liberal-inqilabi hərəkatla həmahəng olaraq həm ümumsiyasi islahatların həyata keçirilməsinə, həm də Rusiya ərazisində yaşayan müsəlmanlar üçün xüsusi milli-mədəni hüquqlara nail olur.

Həm də o vaxt cəmiyyətdə iki əsas təmayül özünü göstərirdi. Köhnə zadəgan təbəqələrindən çıxmış, universitet təhsili almış nisbətən yaşlı nəsil Rusiya liberalları ilə bir sırada addımlayır, əksəriyyəti milli tərbiyə görmüş gənc nəsil isə Rusiya ictimaiyyətindəki radikal və inqilabi cərəyanlara rəğbət bəsləyirdi.

Məlum antimüsəlman siyasəti yeridən Rusiya imperiyasının zülmü altındakı türk xalqları siyasi cəhətdən bir istiqamətdə, həm də öz aralarında sıx ideya-təşkilat əlaqələri yaradaraq fəaliyyət göstərirdilər. Ümumrusiya müsəlman hərəkatına müəyyən dərəcədə Azərbaycan cəmiyyətinin nümayəndələri rəhbərlik edirdilər.

Rusiya müsəlmanlarının siyasi cəhdlərini formalaşdıran iki tarixi fakt Rusiya müsəlmanlarının siyasi həyatının inkişafında iki mühüm məqamı müəyyənləşdirir: bunlardan birincisi 1905-ci ildə çağırılmış Nijni Novqorod qurultayı[5], ikincisi isə 1917-ci il Moskva qurultayıdır[6].

Taktiki cəhətdən rus liberalizmi ilə əməkdaşlıq şüarı altında keçən Nijni Novqorod qurultayı siyasi baxımdan milli-mədəni və mülki-hüquqi xarakterli tələblərlə məhdudlaşırdı. Moskva qurultayı isə Rusiyanın muxtar milli-ərazi vahidlərinə bölünməsi tələb olunan qətnamə qəbul etmişdi[7]. Həm birinci, həm də ikinci qurultayda siyasi formulirovkaları Azərbaycan nümayəndələri (birincisində – ilk Dövlət Duması Müsəlman Fraksiyasının sədri Ə.M.b. Topçubaşı[8], ikincisində – Azərbaycan milli-demokrat "Müsavat" partiyasının sədri M.Ə.Rəsulzadə) irəli sürmüşdülər.

Nijni Novqorod qurultayı keçirilən zaman təkcə qurultayın özündə deyil, həm də yerlərdə, yəni Azərbaycanda əksəriyyət liberalların tərəfində idi; Moskva qurultayında isə liberallar heç yada düşmürdü, əvəzində «rus inqilabi demokratiyası» deyilən koalisiyanın tərəfdarları var idi; lakin onlar demokratik Rusiyanın unitar quruluşuna dair tələbləri ilə azlıqda qaldılar. Əksəriyyət imperiya hüdudlarında yaşayan bütün millətlərin milli-ərazi baxımdan ayrılmasını tələb edən

inqilabi millətçilərin arxasınca getdi.

Nijni Novqorod qurultayında həlledici rol oynamış Azərbaycan inqilabi milliyyətçiliyini Moskva qurultayında «Müsavat» partiyası təmsil edirdi; bu partiya hələ Qafqaz müsəlmanlarının Bakıda keçirilmiş qurultayında (1917-ci ilin aprelində) öz proqramını açıqlayaraq tələb etmişdi ki, təkcə Azərbaycanın deyil, Rusiyanın hakimiyyəti altında olan digər türk millətlərinin də öz dövlətləri formalaşmalıdır[9].

"Müsavat" partiyasının xadimləri yaşlı nəsildən fərqli olaraq Azərbaycanın ilk rus inqilabı dövründə Rusiya ictimai fikrinin inqilabçı qanadına rəğbət bəsləyən gənc nəslinin nümayəndələrindən ibarət idi. Çarizmlə mübarizədə onlar inqilabi sosializmə, tam sadiq olmasa da, ən münasib müttəfiq kimi baxırdılar.

Ölkələrini kölə vəziyyətinə saldığına görə Rusiyaya nifrət bəslədikləri üçün bu gənclər dərin təxribati fəaliyyətlə məşğul olan ifratçı partiyaların taktikasını daha asanlıqla qəbul edirdilər.

İslamçılığın və türkçülüyün ideya ənənələrinin modernləşdirilmiş anlayışlarını özündə saxlamış milli ideologiyanın, xalqçı-sosialist yönlü sosial proqramın, bir də Azərbaycanın və bütün Qafqazın Rusiyadan ayrılmasına cəhd mənasında inqilabçı taktikanın birləşməsi kimi fəaliyyət göstərən müsavatçılıq qısa müddətdə Azərbaycan xalq kütlələrinin içində böyük populyarlıq qazanmışdı. Rusiya Müəssislər Məclisinə, Zaqafqaziya Seyminə, Azərbaycan Parlamentinə və hətta Bakı Fəhlə Deputatları Sovetinə seçki zamanı "Müsavat" partiyası və onunla blok yaradan qruplar həmişə böyük əksəriyyət təşkil edirdi. Bu andan etibarən, "müsavatçılıq" Azərbaycan milliyyətçiliyinin sinoniminə çevrilir.

Dirçəlmiş milli ədəbiyyatın yaydığı, müxtəlif yönlü ictimai-siyasi təşkilatların və cərəyanların müdafiə etdiyi, nəhayət, "Müsavat" partiyasının proqramında konkret siyasi formulirovka almış Azərbaycanın millətçilik-dövlətçilik baxımından öz müqəddəratını təyin



etməsi ideyası, ümumxalq tələbinə çevrilərək gerçəkləşmiş oldu. Azərbaycan Milli Şurası ümumxalq iradəsinə uyğun olaraq 1918-ci il mayın 28-də Azərbaycanı müstəqil demokratik respublika elan etdi.

Azərbaycan Demokratik Respublikası cəmi iki il yaşadı. 1920-ci il aprelin 27-də o, sovet Rusiyasının hücumuna məruz qalaraq Qırmızı ordu süngülərinin gücünə "sovetləşdirildi". İşğalçı qüvvələrə qarşı mübarizənin gedişi bir qədər sonra təsvir ediləcək. İndi isə milli hökumətin mövcudluğu dövründə Azərbaycanın qazandığı bir sıra uğurlar üzərində dayanaq.

Bu nailiyyətlərin şərhinə keçməmiş bunları qeyd etməyi faydalı hesab edirik:

Müsəlman Azərbaycanı xristian qonşularına nisbətən çar rejiminin zülmünə daha çox məruz qalmışdır. Qonşu erməni və gürcülərdən fərqli olaraq azərbaycanlılar hərbi mükəlləfiyyət daşımır (etibarsız ünsürlər kimi), inzibati dövlət xidmətinə götürülmür (nadir istisnaları nəzərə almasaq), yalnız ümumvətəndaş hüquqları ilə məhdudlaşdırılır (Zaqafqaziya özünüidarə orqanlarında müsəlmanlar bütün qlasnıların yarıdan çoxunu təşkil etmək hüququna malik deyildilər) və süni şəkildə cəhalətdə saxlanılırdılar. Onlara ana dilində mətbuat buraxmağa icazə verilmirdi; hətta xeyriyyəçi-maarifçi xarakterli ictimai təşkilat yaratmaq da yasaq idi.

Qısa müddət ərzində Azərbaycan hökuməti mövcudluğu milli ruhun dirçəlməsi işində çox böyük əhəmiyyət kəsb edən 30000-lik ordu yarada bildi. Dövlət aparatı qaydaya salındı. Azərbaycan hökuməti mövcud qanunlar külliyyatını qüvvədə saxlamaqla yeni quruluşun və milli maraqların tələblərinə uyğun olaraq dövlət orqanlarını tədricən yenidən təşkil etmək siyasətinə üstünlük verirdi.

Milli hökumətin əsas diqqəti məktəb işinin və xalq təhsilinin təşkilinə yönəldilmişdi. Bolşeviklərin rəsmi statistikasına görə, çar hökuməti yıxılanda bütün Azər-

baycanda təxminən 62788 şagirdin təhsil aldığı 950 ibtidai məktəb var idi. 32 orta məktəbdə 2643 şagird oxuyurdu. Ali təhsil müəssisələri yox idi.

Azərbaycanda milli hökumət qurulanda isə əhalinin yalnız 6%-i savadlı idi.

Faktik mövcudluğunun ilyarımlıq müddətidə milli hökumət bu məktəblərin milliləşdirilməsi ilə məşğul olurdu. İbtidai məktəblər tam türkləşdirilmişdi. Milli azlıqların məktəblərində türk dili icbari fənn kimi tədris edilirdi. Milli proqramlı yeni orta məktəblər açılmışdı. Mövcud orta məktəblərdə də türkləşmə aparılırdı. Milli məktəblər üçün müəllim kadrları hazırlamaq məqsədi ilə Bakı, Ş əki, Qazax və Gəncə şəhərlərində yeni müəllim seminariyaları açılmışdı. Türkiyədən kişi və qadın müəllimləri gətirilməsi barədə razılıq əldə edilmişdi.

Tarix-fəlsəfə, fizika-riyaziyyat və tibb fakültələri olan universitet təsis olundu. Universitetin professorları xaricdən gəlmişdilər. Bütün Avropa elm mərkəzlərinə yüzdən yuxarı tələbə göndərilmişdi.

Xüsusi məqsədlə yaradılmış komissiya milliləşdirilmiş məktəblər üçün vəsaitlər - elmi-kütləvi nəşrlər, dərsliklər və s. tərtib və tərcümə edirdi.

Ölkənin bütün böyük inzibati mərkəzlərində dövlət məmurları hazırlayan xüsusi kurslar yaradılmışdı.

Əvvəldə qeyd edilmiş hərbi məktəblərdən başqa, Bakıda xüsusi polis məktəbi də açılmışdı.

Bolşevik statistikasına görə, 1920-ci ilin aprelində Sovetlər ölkəni işğal edəndə Azərbaycanda əhalinin artıq 10%-i savadlı idi.

Azərbaycan parlamentində rəhbər rol ideoloji səciyyəsi əvvəldə verilmiş "Müsavat" partiyasına məxsus idi.

"Müsavat" partiyasından başqa, milli azlıqların (erməni və rus) fraksiyaları istisna olmaqla parlamentdə sağ və sol cinahları təmsil edən digər partiyalar da vardı. "Müsavat"dan sağda dini "İttihad"[11] partiyası, solda isə sosialist bloku dururdu.

Bütün bu qruplar, ideoloji fərqlərinə baxmayaraq,



müstəqillik məsələsində həmrəy idilər ki, bu da xarici siyasət və dövlətin müdafiəsi məsələlərində xüsusi nümayiş etdirilirdi. Təkcə onu demək kifayətdir ki, parlamentdəki ovqatın son dərəcə liberal olmasına baxmayaraq hərbi qurumun büdcəsi oradan həmişə ruh yüksəkliyi ilə keçir, heç vaxt müzakirə edilmirdi.

Azərbaycan parlamentinin aqrar islahata dair qəbul etdiyi qərara görə torpaq fondunun çox kiçik bir hissəsi torpaq sahiblərində saxlanılır, qalanı isə xəzinəyə keçirilirdi. Xəzinə torpaqsız kəndlilərə məlum norma daxilində tam təmənnasız olaraq münbit torpaq sahələri verirdi. Bu sahələr tam şəkildə əkinçilərin mülkiyyəti idi. Başqa sözlə, xırda kəndli torpaq mülkiyyəti yaradılmışdı. Bu zaman yerin təkindəki sərvətə sahiblik hüququ istisnasız olaraq dövlətə məxsus idi.

Eyni zamanda geniş demokratik əsaslar üzərində zemstvo özünüidarələrinin təşkilinə dair başqa bir qanun da qəbul edilmişdi.

Xarici siyasət məsələlərində Azərbaycan milli hökuməti hər şeydən öncə yeni qurulmuş respublikanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə nail olmağa çalışırdı və böyük dövlətlərlə bağlı faktik olaraq buna nail olmuşdu[12]. Azərbaycanı de-yure tanımış İranla[13], eləcə də Türkiyə ilə sülh və dostluq müqavilələri bağlanmışdı.

Qonşu Qafqaz respublikalarına münasibətdə isə Azərbaycan milli hökuməti xüsusi sıx yaxınlaşma siyasəti aparırdı. "Müsavat" partiyası 1919-cu ildə özünün Bakıda keçirilmiş ikinci konqresində Qafqaz respublikalarının konfederativ ittifaqda[14] birləşməsi zərurəti haqqında qətnamə qəbul etmişdi. Azərbaycanla Gürcüstan arasında xüsusi hərbi-müdafiə ittifaqı bağlanmışdı[15].

Azərbaycan hökuməti həm Bakıda keçirilmiş Ermənistan-Azərbaycan, həm də Tiflisdə keçirilmiş Zaqafqaziya konfranslarında bu respublikaların konfederasiya şəklində birləşməsinə dair rəsmi təkliflə

çıxış etsə də, hər dəfə ermənilərin rədd cavabı ilə üzləşdi. Hətta Azərbaycan parlamenti iclaslarının birində Qafqaz respublikalarının ən sıx formada yaxınlaşması haqqında bəyannamə də qəbul etmişdi.

Rusiya bolşeviklərinin Bakıda həmişə öz fəallığı ilə seçilən təşkilatı olmasına baxmayaraq bir sosial doktrina kimi bolşevik təbliğatı Azərbaycanda uğur qazana bilmirdi.

Bakıdakı müsəlman fəhlələrinin böyük əksəriyyəti "Müsavat" partiyasının arxasınca gedirdi. 1917-ci il Rusiya inqilabının başlanğıcında Bakıda Fəhlə və Əsgər Deputatları Sovetinə seçkidə "Müsavat" partiyası bütün səslərin 70 %-ni qazanmışdı. Bolşeviklərin Azərbaycana gəlişi ərəfəsində isə, Kommunist Partiyası Zaqafqaziya Komitəsinin katibi Lominadzenin[16] təsdiq etdiyi kimi, Azərbaycan kommunistlərin sayı 300 nəfərdən artıq deyildi. Ancaq Azərbaycanda sosial baxımdan gücsüz olan bolşeviklər siyasi demaqogiyadan geniş bəhrələnirdilər. Bu barədə bir qədər sonra.

III

Sovetlər Azərbaycanı azərbaycanlılar üçün son dərəcə əlverişsiz bir şəraitdə işğal etmişdilər. Rus-bolşevik təcavüzü ilə mübarizədə Baltika dövlətlərinin maraqları Qərb məmləkətlərinin siyasi maraqları ilə üst-üstə düşdüyü, bu mübarizədə onlar həm mənəvi, həm də maddi cəhətdən dəstək gördükləri bir zamanda Qafqazda tam fərqli vəziyyət yaranmışdı. Bəlli səbəblər üzündən böyük dövlətlər Qafqaz respublikalarını vaxtında dəstəkləmədilər; birbaşa qonşulara - İran və Türkiyəyə gəlincə, onlar, xüsusən də Türkiyə, elə durumda idi ki, öz varlığı uğrunda mübarizədə bolşeviklərlə dostluq etməyə, hətta onlardan yardım almağa məcbur idi.

Belə bir şərait, xüsusən gənc, hələ möhkəmlən-



məmiş Azərbaycanın fəlakəti ilə nəticələndi. Türkiyənin Azərbaycanda sığınacaq tapmış siyasi mühacirləri qeyri-iradi olaraq Azərbaycanın "sovetləşməsinin" dəstəkçisinə çevrildilər. Yunanların sıxışdırdığı kamalçıların köməyinə getməli olan Qırmızı ordunun yolunda bolşeviklərin qəbul etmədiyi "müsavatçı" Azərbaycan dayanmışdı; bunu Moskvanın agentləri türkiyəli mühacirlərlə həmahəng şəkildə bütün yolayrıclarında təkrarlayırdılar ki, bu da qardaş xalqın taleyinə acıyan, hələ dünən ona yardım əli uzatmış ölkənin ictimai fikrində dərin iz buraxırdı.

Həmin böhranlı günlərdə bolşeviklərin apardıqları intriqa sayəsində Qarabağın erməni əyalətlərində üsyan alovlandı. Respublikanın əsas qoşun hissələri üsyanın yatırılmasına cəlb edildi. Fürsətdən istifadə edərək Qırmızı ordu müharibə elan etmədən və heç bir əsas olmadan 60000-dən artıq süngü ilə sərhədi keçdi və azsaylı Azərbaycan əsgərlərinin müqavimətini qırıb[17] 1920-ci il aprelin 27-də Bakını tutdu.

Qırmızı işğalçılar yenicə yaranmış respublikaya qarşı zorakılıqlarını bütün vasitələrlə ört-basdır etməyə çalışırdılar. Bu məqsədlə onlar bir tərəfdən, guya onları köməyə çağırmış Bakı fəhlələrinin üsyan qaldıracaqları haqqında yalanlar uydurur, digər tərəfdən isə, türk mühacirlərindən sui-istifadə edirdilər, onlarla əməkdaşlıq qurmaqla belə bir təəssüratın yaradılmasına nail olurdular ki, sovet ordusu doğrudan da Anadolunun köməyinə gedir və onların Azərbaycanı işğal etmək niyyətləri yoxdur, burada guya ölkənin milli müstəqilliyinə qətiyyən toxunmayan daxili çevriliş baş vermişdir.

Gerçək sovetləşmənin ilk addımları ona xas olan bütün keyfiyyətlərlə birlikdə əhalini ayıltdı və mislibərabəri olmayan yalanın dumanı dağılmağa başladı. Yerlərdə üsyanlar başlandı.

Repressiyalara və xəbərdarlıq tədbirlərinə baxmayaraq Bakı işğal edildikdən təxminən bir ay sonra,

1920-ci il mayın 26-da, Gəncədə üsyan qalxdı. Bu zaman 250 nəfərdən ibarət olan milli Azərbaycan ordusunun Gəncə alayının bir taboru və iki batareyadan ibarət 3-cü Nuxa alayının bəzi hissələri Gəncədə idi. Rusların isə şəhərin türklər yaşayan hissəsində 2500, ermənilər yaşayan hissəsində 500-ə yaxın qırmızı əsgəri və iki zirehli qatarı vardı. Milli hissələr ətrafında şəhər əhalisinin partizan dəstələri toplaşmışdı.

Üsyanın ilk günü beşsaatlıq qanlı mübarizədən sonra üsyançıların qələbəsi ilə başa çatdı. Qırmızı ordunun bütün hissələri tərksilah edilib əsir götürüldü. Şəhərdə dövlət müəssisələri və dəmiryol stansiyası üsyançıların əlinə keçdi. Gecə bolşevik zirehli qatarları stansiyanı alaraq şəhəri bombardman etməyə başladı. Həm Bakı, həm də Qazax tərəfdən bolşeviklər Gəncəyə 20000 nəfərlik ordu yeridərək ermənilərin köməyi ilə şəhəri mühasirəyə aldılar. Qeyri-bərabər döyüş başlandı. Əlverişsiz şəraitə baxmayaraq üsyançı əsgərlər xalq könüllülərinin və partizanların yardımı ilə fədakarcasına müqavimət göstərərək düşmənin şiddətli hücumlarını dəf edirdilər. İnadkarcasına və gərginliklə vuruşmalarına baxmayaraq üsyançılar məğlubiyyətə məhkum idilər. Küçələr dəhşətli ümumi qırğın səhnəsinə çevrilmişdi. Bir həftədən artıq davam etmiş bu mübarizədə, demək olar, hər bir küçəni, hər bir evi almaq üçün ayrıca hücum təşkil edilirdi.

Rəsmi sovet mənbələrinə görə bu müharibədə 8500 qırmızı əsgər həlak olmuşdur. Əhali arasındakı itki isə, belə ehtimal etmək olar ki, azı üç dəfə çox idi.

Qarabağda da belə bir üsyan baş vermişdi. Bir neçə gün davam etmiş inadlı və qanlı mübarizədən sonra üsyançıların bir hissəsi İrana, bir hissəsi isə Türkiyəyə keçməyə məcbur olmuşdu.

Zaqatala və Nuxa istiqamətində alovlanmış üsyan da eyni qəddarlıq və qanlı qırğınla yatırılmışdı.

Lənkəran meşələrində və Quba qəzasının dağlarında da bu cür qanlı üsyanlar olmuşdu. Sürəkli Lənkəran



hərəkatı işğalçılara xeyli başağrısı vermişdi. Lənkəran və Salyan şəhərləri uzun müddət üsyançıların hücum təhlükəsi altında qalmışdı.

Adı çəkilən üsyanların amansızlıqla yatırılmasına baxmayaraq Azərbaycanda üsyan hərəkatı həmişə olmuş, sovet hakimiyyətinin siyasi məqamlarının və iqtisadi eksperimentlərinin xarakterinə uyğun olaraq yalnız tempi və ölçüsü dəyişilmişdir. 1925-ci ildə Azərbaycan SSR-nin daxili işlər üzrə xalq komissarı Bağırov[19] Azərbaycan Kommunist (b) Partiyasının qurultayındakı məruzəsində ölkədəki antikommunist hərəkatından bəhs edərək sovet hakimiyyətinə qarşı 64 böyük silahlı çıxış olduğunu bildirmişdi.

I

Silahlı mübarizə və xalqın fəal hissəsinin, ilk növbədə kəndlilərin qəti müqaviməti gizli fəaliyyətə keçmiş milli qüvvələrin ardıcıl və fasiləsiz siyasi fəaliyyəti ilə həmahəng idi.

"Müsavat" partiyasının rəhbərlik etdiyi "Azərbaycanın İstiqlal Komitəsi" ölkə işğal edildikdən sonra buraxdığı bəyannamədə Azərbaycandakı sovet hakimiyyətini işğalçı və qəsbkar adlandıraraq xalqı itirilmiş müstəqilliyin bərpası uğrunda mübarizəyə səsləmişdi.

İqtisadi sahədə də hökumət orqanlarına güclü müqavimət göstərilirdi. Bu, başlıca olaraq kəndlilərin hökumətin göstərdiyi qədər toxum səpməkdən, kənd təsərrüfatı məhsullarını sabit qiymətlərlə satmaqdan imtina etməkdə, sovet kooperativlərinin boykot edilməsində, sovet kənd təsərrüfatı müəssisələrinə zərər vurulmasında, hökumətə məxsus taxıl anbarlarının yandırılmasında özünü göstərirdi. Bir qrup kəndlini Qarasaqqal kanalının şlüzlərini zədələdiklərinə və bunun nəticəsində kolxozlara və köçkünlərə məxsus əkin yerlərini su basdığına görə ittiham etmişdilər. Həbsxanalar vergi verməyən kəndlilərlə, partizanların köməkçiləri, ziyankarlar və digər antisovet ünsürləri ilə

ağzına qədər doldurulmuşdu. Pambıq yığımı kampaniyalarındakı çətinliklər kəndlilərin hökumətin niyyətlərinə qarşı necə böyük inadkarlıqla mübarizə apardığını əyani surətdə göstərirdi. Sovet qəzetləri kəndlilərin törətdiyi "sabotaj", "ziyankarlıq", kolxozçuların öldürülməsi faktları ilə dolu olurdu.

Azərbaycanın bir çox ziyalıları da texniki və iqtisadi sahələrin sabotajçıları kimi təqiblərə məruz qalırdı. Bu yaxınlarda xeyli müəllim şimala sürgün edilmiş, Bakıda 7 kooperativçi və iki müəllim güllələnmişdir[20].

Kiçik bir oçerkdə Azərbaycan xalqının bəşər tarixinə bəlli olan ən dəhşətli tiranlığa qarşı apardığı böyük mübarizənin bütün məqamlarını göstərmək mümkün deyildir.

Milli düşüncə sahibi olan gənclərin, ziyalıların, fəhlə sinfinin, kəndlilərin və bütün Azərbaycan əhalisinin ən geniş təbəqələri bu təşkilatın ətrafında birləşmişdi.

Azərbaycanda milli qüvvələrlə istilaçı rejim arasında ölüm-dirim mübarizəsi başlanmışdı.

1922-ci ildən başlayaraq, demək olar, hər gün Azərbaycanda kütləvi həbslər həyata keçirilirdi. Məhbusların bir qismi BSİ-nin (Baş Siyasi İdarənin – tərc.) rütubətli zirzəmilərində saxlanılır, bir qismi isə şimala, Azərbaycan şairlərindən birinin təbiri iilə desək, "buzlu cəhənnəmə" sürgün edilir.

1923-cü ilin avqustunda 2000-ə qədər müsavatçı həbs edilmişdi. Həmin il dekabrın əvvəlində tam təsadüfən gizli mətbəə aşkarlanıb və qeyri-leqal "İstiqlal" qəzeti müsadirə olunub. Bakıda tam 3 il Çekanın burnunun ucunda artıq 19-cu nömrəsini buraxmağa müyəssər olmuş gizli qəzet nəşr edilib. Nə Çeka agentlərinin ayıq-sayıq təqibi, nə də kütləvi həbslər bu qəzetin nəşrinə mane ola bilməmişdi. Elə həmin günlərdə həbs edilənlərə qarşı törədilmiş dəhşətli vəhşilik onların 10 günlük aclıq elan etmələrinə səbəb olmuşdu. Aclıq edənlər arasında həkimlər, müəllimlər, yazıçılar, şairlər, mühəndislər, tələbələr və bir çox



başqaları var idi. Həbs olunmuş dəstədən 50-60 nəfər görkəmli xadim Solovki düşərgəsinə göndərilmişdi.

Kütləvi həbslər 1924, 1925, 1926, 1927, 1928 və 1929-cu illərdə təkrar edilmişdi. Tutulanlardan bəziləri, məsələn, doktor Dadaş[21] güllələnmiş; bəziləri işgəncələrə dözməyərək dəli olmuş, qalanlar isə məlum "buzlu cəhənnəmə" yollanmışlar. Son illər güllələmə və məhkəməsiz cəzalandırma halları daha tez-tez baş verir.

Hazırda Solovkidə Azərbaycan koloniyası var; bu cəhənnəmə təsadüfən yolu düşənlər dəfələrlə onların qəhrəmanlılıqlarının şahidi olublar.

Vəhşicəsinə təqiblərə və amansız terrorlara baxmayaraq "müsavatçılar" gizli fəaliyyətlərini davam etdirmişlər. Bunu bolşeviklərin özlərinin ifadələri ilə təsdiq edə bilərik. Azərbaycan Sovet Respublikasının daxili işlər üzrə xalq komissarı, məşhur çekist M.C.Bağırov 1926-cı ildə Azərbaycan Kommunist (b) Partiyası Bakı təşkilatının 16-cı konfransının tribunasından "Müsavat" partiyasının gizli fəaliyyəti haqqında müfəssəl məruzə etdikdən sonra bəyan etmişdi ki, "hazırda Mərkəzi Komitənin dörd üzvü bizim Çekada saxlanılır. Onların hər biri bizim ən məsul müəssisələrimizə yol tapa bilirdi. Bizim iki istiqamətdə: Sovetlərdə çalışmaqla «Müsavata» işləməyin bir araya sığmaması haqqında göstərişimizə cavab olaraq onlar yekəxanalıqla deyirdilər: neynək, bu bizim üçün daha rahat və əlverişlidir" ("Kommunist", (1926) № 302).

***

Heç bir repressiyaya baxmayaraq Azərbaycanda milli ovqat kommunizmi get-gedə daha çox üstələyirdi. Millətin və dövlətin müstəqilliyi ideyası təkcə xalq kütlələrinin geniş təbəqələrinə deyil, kommunistlərin özlərinin ən mərhəm dairələrinə də nüfuz edirdi. Sovet Azərbaycanının ilk rəhbəri Nərimanovun[22] özündən tutmuş Azərbaycan Kommunist (b) Par-

tiyasının katibi Xanbudaqova[23] qədər hər cür təmayülçülüyün ana xətti "Mərkəz Azərbaycanın daxili işlərinə qarışmamalıdır" tələbindən gəlib keçirdi. Amma bu tələb, əlbəttə, "mərkəzə" müntəzəm olaraq bu "qoçaqları" «"kiçik burjua" təsirinə uymuş ünsürlər» adlandırmağa və "hamısını Moskvaya çağırıb partiyanı onların tərəfdarlarından təmizləməyə" mane olmurdu. Son illər Azərbaycan Kommunist Partiyası dəfələrlə təmizləmələrə məruz qalmışdır və çox vaxt onu Moskvadan təyin edilmiş rus baş katiblər idarə edirlər.

Hətta kommunistlərin əvəzediciləri sayılan komsomolçular da Moskvanın göstərişlərinə kor-koranə tabe olmaqdan yayınırlar. Kommunist partiyasının Bakı təşkilatı katibinin məlumatına görə, yerli komsomolçuların 40%-i millətçilik meylinə münasibətdə etibarsız element kimi "təmizlənmişdir". O, xüsusi ürək ağrısı ilə qeyd etmişdir ki, sovet məktəblərində "müsavat dərnəkləri" açılmış, onların da fəal təşkilatçıları komsomolçular olmuşlar[24].

Bakı Sovetinin qurultaylarının birində daxili işlər üzrə xalq komissarı Bağırov demişdir ki, "müsavatçılar" hətta sovet və partiya orqanlarına da daxil ola biliblər. Hökumətin əlində "Müsavat" partiyası MK-sının təlimatı var idi, burada müəllimlərə göstəriş verilir ki, məktəblərdə milli özünüdərk ideyalarını yaysınlar və gəncləri rus-bolşevik rejiminə nifrət ruhunda tərbiyə etsinlər[25].

Kommunistlər arasında milli təmayülün olmasını sənədlər əsasında əyaniləşdirmək üçün Azərbaycanın partiya həyatından və bolşeviklərin mətbuatından götürülmüş bəzi faktlara müraciət edək:

Birinci dövrün silahlı üsyanları ümumən 1924-cü ildə tam yatırılmışdı. Bu işdə təkcə Qırmızı Ordunun maddi qüvvələri deyil, həm də kəndə təzyiqin zəifldilməsində və onlara (kəndlilərə) müəyyən dərəcədə iqtisadi azadlığın verilməsində özünü göstərən yeni iqtisadi siyasət rol oynamışdı. Tezliklə məlum oldu ki,



bütün yerli sovetlər və kooperativlər, sovet terminologiyası ilə desək, kiçik burjua və "qolçomaq" elementlərinin əlinə keçmişdir. Ticarətdə dövlət inhisarının ləğv edilməsi və ticarət azadlığının elan edilməsi tələbini irəli sürən hərəkat başlanmışdı. Kəndlilər bu tələbi təkcə sözlə ifadə etmir, öz arzularını həm də əməli qaydada həyata keçirərək dövlət müəssisələrini inkar etməyə - mallarını bazara çıxarıb sərbəst qiymətlərlə satırdılar.

Kəndli sinfinə qarşı yürüş başlandı.

Azərbaycan Kommunist (b) Partiyasının baş katibi Levon Mirzoyan[26] Bakıda etdiyi çıxışında ("Kommunist", № 302) o zaman bu sözləri demişdi: "Proletar Bakısı milli ruhlu Azərbaycan kəndlilərinin əhatəsindədir. Azərbaycan kəndliləri Bakını işğal edəcəkləri ilə hədələyirlər. Onlar Azərbaycanda proletar diktaturasına son qoymağa can atırlar".

1927 və 1928-ci illərdə "proletar diktaturasını" yaxınlaşmaqda olan təhlükədən qorumaq üçün bolşeviklər hücuma keçdilər; qərara aldılar ki, kənd sovetlərini arzuedilməz ünsürlərdən təmizləsinlər. Bu illərdə Sovetlərə seçkilər Azərbaycanda qanlı hadisələrlə müşayiət edilmişdi. "Səsi alınmış" kəndlilər bütün kommunistləri və onların namizədlərini sovetlərdən qovaraq özləri onların yerlərini tuturdular. Taxıl tədarükü zamanı da oxşar hadisələr baş verirdi.

İşğalçı hökumətin həyəcanını dərinləşdirən faktlardan biri də bu idi ki, hakimiyyətin kəndlilərə qarşı mübarizəsində Azərbaycan kommunistləri bitərəf mövqe tuturdular və kəndlilərlə mübarizə aparmaqdan imtina edirdilər. Azərbaycan kommunistlərinin əsas kadrlarının əksəriyyətinin elə həmin kəndlilər sırasından cəlb edilliyi nəzərə alınsa, məsələ bir qədər də aydınlaşar.

Moskva Azərbaycan Kommunist Partiyasını "təmizləmək" qərarına gəldi. ÜİK(b)P MK-nın 25 iyul 1925-ci il tarixli qətnaməsi ilə[27] Azərbaycan kommu-

nist partiyasını yenidən təşkil etmək, yəni mərkəzi, şəhər, qəza və kənd partiya komitələrinin bütün üzvlərini kənarlaşdırıb onları Moskvadan təyin olunmuş şəxslərlə əvəzləmək haqqında qərar qəbul edildi[28].

O zaman Moskva və Bakıda çıxan qəzetlər bu hadisəyə həsr olunmuşdu. Məsələnin müzakirəsində görkəmli kommunist xadimlər iştirak edirdilər. Əsas hücum Bakı partiya təşkilatına yönəlmişdi. O, bolşevizmdən yayınmaya, millətçiliyə, Azərbaycanın mərkəzi və qəza komitələrində kiçik burjua ideologiyasının güclənməsinə qarşı mübarizə aparmamaqda ittiham olunurdu. Bu, azmış kimi həmin təşkilat millətçilərə və mülkiyyətçilərə himayədarlıq da edirmiş.

Həbib Cəbiyev[29] Bakıda türk dilində çıxan "Kommunist" qəzetində (№№ 183 və 184) yazırdı: "...NEP-in (rus dilindəki «Novaya ekonomiçeskaya politika» - «Yeni iqtisadi siyasət» sözlərinin baş hərfləri - red.) təsiri ilə güclənən xırda burjua ünsürlərinin mülkiyyətçilik və millətçilik hərəkatları kommunist partiyasının sıralarına təsirsiz ötüşə bilməzdi. Partiyamızda sağ təmayülü bu hərəkat yaradıb. Azərbaycan şəraitində bu təmayül millətçilik, xüsusən türk millətçiliyi formasında zühur edir. Bu hal gələcəkdə də davam edərsə, Azərbaycan "Müsavat" partiyasının təsiri altında qalacaq..."

Bu bəlaya qarşı zəruri tədbir kimi Cəbiyev Azərbaycan Kommunist Partiyasının rəhbər heyətini buraxmağı təklif etmişdi, çünki "Azərbaycanda millətçiliyin yaşamasına yalnız onlar imkan verirlər..."

Cəbiyev elə bu məqaləsindəcə yazırdı ki, hələ 1922-ci ildə millətçiliklə zəhərlənmiş kommunist ünsürləri Azərbaycanı burjua-demokratik respublikası elan etmək istəyirdilər.

1924-cü ildə Azərbaycan Kommunist Partiyasının baş katibi Əyyub Xanbudaqov partiyanın rəsmi taktikasından yayınaraq Azərbaycan müxalifətinə rəhbərlik etməyə başlamışdı. Onun qrupu Azərbaycana öz



daxili işlərində müstəqillik verilməsini tələb edirdi.

"Xanbudaqovçuluq" adını almış bu hərəkat təqibə məruz qaldı, Xanbudaqovun özü isə Azərbaycandan çıxarıldı[30]. Lakin "xanbudaqovçuluğun" kökləri dərində idi. 1925 və 1926-cı illərdə Azərbaycan Kommunist Partiyasını yenə də müxalifət dalğasına büründü. Bu dəfə müxalifət qrupuna MK-nın başqa bir məsul katibi - Mahmud Xanbudaqov[31] başçılıq edirdi. Özünün mətbu və kütləvi çıxışlarında o, Sovet Respublikaları İttifaqının Konstitusiyasına yenidən baxılmasını, müttəfiq respublikaları, o cümlədən Azərbaycanı idarə etmək sahəsində Moskvanın hüquqlarının məhdudlaşdırılmasını tələb edirdi.

1928-1929-cu illərdə Azərbaycan Kommunist Partiyasının məsul katibləri - Yusuf Qasımov[32] və Mirzoyan bütün rus məmurlarını Azərbaycandan çıxarıb yerli kadrlarla əvəzləmək, kəndliləri Moskva eksperimentlərinə qarşı mübarizədə dəstəkləmək məqsədilə azərbaycanlılarla ermənilərin blokunu yaratmışdılar.

Azərbaycan kommunistlərinin içərisində müxalifət təmayülləri yaşamaqda davam edirdi. Sonrakı illərdə də onların sayı çox idi. Y.Qasımovun, M.Zeynalovun[33], Atakişiyevin[34] və başqalarının qrupları vardı. Bu qrupların hamısı tam millətçi xarakterə malik, Azərbaycan millətçiliyini birmənalı şəkildə müdafiə edən Teymur Əliyevin[35] qrupu ilə əməkdaşlıq edirdi.

ÜİK(b)P MK özünün 31 oktyabr 1931-ci il tarixli qərarında xüsusi qeyd etmişdi ki, Azərbaycanda kommunist partiyası ideoloji və təşkilati baxımdan hələ möhkəmlənməmişdir.

Azərbaycan Kommunist (b) Partiyasının Baş katibi, Moskvadan təyin edilmiş Polonski[36] bu qərara haqq qazandırmaq üçün deyirdi ki, "yerli millətçiliyə son qoymaq lazımdır", çünki, onun sözlərinə görə, o, "Azərbaycanı Rusiyadan ayırmağa və müstəqil dövlət yaratmağa çalışır". Bu məqsədlə, onun məruzəsi əsasında partiya qurultayı «"Müsavat" partiyasına və

onun ideologiyasına qarşı təkcə ölkə daxilində deyil, həm də xaricdə fəal mübarizə aparmaq haqqında» qərar qəbul etmişdi.

Aydın məsələdir ki, partiya daxilindəki bütün bu təmayülləri Moskva həmişə amansızlıqla boğmuşdur. Yerli təşkilatları «millətçilik və xırda burjua mərəzi»ndən «təmizləməklə» məşğul olan ayrıca komissiyalar yaradılır, fövqəladə səlahiyyətli diktator baş katiblər göndərilirdi. Komsomolçuların 60%-i təşkilatdan xaric edilmiş, partiyada kəndlilərin say tərkibi 60%-dən 13%-ə enmişdi. Kəndlilərin bütöv bir təbəqəsi Sovetlərə seçki hüquqlarından məhrum edilmiş, "artıq" torpaq sahələri əlindən alınmışdı. Əvvəllər 80%-i kəndlilərdən ibarət olan kooperativləri indi onlardan təmizləyirdilər.

## II

"Xırda burjua millətçilik epidemiyası" işğalçı rejimin təkcə siyasi istinadgahına, yəni Azərbaycan Kommunist Partiyasının sıralarına deyil, ölkədə kommunizmin bütün ideoloji baza sisteminə təsir göstərir. Hesab olunur ki, nə məktəbdə, nə mətbuatda, nə də ədəbiyyatda kommunist rejimi hələ də tam təmin olunmamışdır.

Əvvəldə qeyd etmişdik ki, sovet hakimiyəti həm məktəblərdə, həm də komsomolçular arasında "müsavatçılıq" agentləri aşkarlamışdı.

Hələ 1928-ci ildə zirək kommunist R.Axundov[37] məktəbi etibarsız müəllimlərdən "təmizləmək" istəyirdi, lakin "sədaqətli kadrlar" çatışmadığına görə onun planları həyata keçməmişdi.

Əyalətdən gəlmiş tələbələr dəfələrlə nəyin bahasına olur-olsun ali təhsil müəssisələrinin milliləşdirilməsi tələbi ilə kəskin nümayişlər təşkil etmişdilər, sovet müəssisələrinin həm dil, həm də kadr mənasında milliləşdirilməsi tələbi, ümumiyyətlə, Azərbaycanda



tələbələrin ən təsirli şüarlarındandır.

Ədəbiyyat sahəsində də vəziyyət belədir: sovetləşmənin onuncu ilində məlum oldu ki, Azərbaycan ədəbiyyatı bütövlükdə "xırda burjua millətçilərinin" əlindədir. Təqib vəziyyətində olmasına baxmayaraq, bütün siniflərin fövqündə dayanan milli poeziya proletar sinfinin ədəbiyyatına üstün gəlirdi. Kommunistlərin sırasından yetişən istedadlı gənc şairlər əsərləri əldən-ələ gəzən millətçi şairlərin təsiri altına düşürdülər. Gənclər gizli surətdə əsərlərini populyar şair Cavidə[38] təqdim edib onun xeyir-duasınıalmaq istəyirdilər[39]. Bolşeviklər buna qarşı "mənəvi terror" vasitəsilə mübarizə aparmaq qərarına gəlmişdilər. Yazıçıların qurultayları çağırılır və orada "Sovet hakimiyyətinə münasibətdə loyal olmayan əks-inqilabçı yazıçılara qarşı" qərarlar qəbul edilir, onlara lənət oxunurdu.

Məşhur qurultayların birində (oktyabr 1929-cu il) xalq maarif komissarı M. Quliyev[40] bolşeviklərin "cığırdaş" adlandırmağa meylli olduqları xalqçı ədəbiyyatın görkəmli nümayəndələrinin adlarını sadalayaraq onlar haqqında deyirdi: "...Bu insanlardan bizə yoldaş olmaz. Onlar hələ heç bir məsələdə burjua-liberal yanaşmadan və anlayışdan xilas olmayıblar[41]. Onlar elə bilirdilər ki, Oktyabr İnqilabı çarizmi devirdikdən sonra kapitalistlərə (oxu: Azərbaycan xalqına - M.Ə.Rəsulzadə) Azərbaycanın ağası olmaq imkanı verəcək". Ümidləri boşa çıxdı. Millətçilərlə bahəm xüsusən ədəbiyyat cəbhəsində qüvvələrini bizə qarşı birləşdirdilər"[42].

M.Quliyev elə bu qurultaydaca Azərbaycanda kommunistlərin kitablarının oxucu kütləsi arasında uğur qazanmadığını sübuta yetirən statistik material açıqamışdı. Buradan o, belə nəticə çıxarırdı: "Elə buna görə də kommunizmdən, kolxozdan, sovxozdan və s. yazan yoxdur. Hamı oxucuların zövqünü oxşamaq üçün burjua əsərləri yazır". Təkcə "cığırdaşlar" deyil,

hətta "millətçilərin təsiri altına düşmüş proletar yazıçıları da" belə edirlər.

Quliyevin bəyanatının təsdiqini biz 5 oktyabr 1929-cu il tarixli "Kommunist" qəzetindəki bir məqalədə görürük. Orada deyilir: "Azərbaycanda əməkçi sinfin sıralarından çıxmış yazıçı və şairlərin sayı artır. Düzdür, bu nəsil "Müsavat"ı tanımır, lakin milli ədəbiyyatın Cavad kimi nümayəndələri, Rusiyanın proletar ədəbiyyatında təsadüf edilən hakimmillətçilik şovinizmi ruhundakı çıxışlardan bəhrələnərək Azərbaycan proletar ədəbiyyatında cəlbedici millətçi əsər nümunələri yaradırlar. Nəticədə Azərbaycan proletar mühitinin gənc yazıçıları Rusiya təhlükəsinə qarşı yazmağa, müsavatın müstəqil Azərbaycan şüarını ideallaşdırmağa başlayırlar. Almas[43], Adil[44], Mişfiq[45], Hüseynzadə[46] və başqaları kimi güclü proletar şairləri qatı millətçiyə çevrilərək Proletar Yazıçıları İttifaqından çıxmış[47], hətta kommunist partiyasının sıralarını da tərk etmişlər. Onlar Cavadla birlikdə Azərbaycanın üçrəngli milli bayrağını vəsf etməyə başlamışlar...".

## III

«NEP» dövründə Sovet hakimiyyəti kommunist rejiminin müəyyən qədər zəifləməsinə yol verir, kənd əhalisinin zirək və iqtisadi baxımdan bacarıqlı hissəsi olan "qolçomağın" "varlanmasına" səbirlə yanaşır, müəyyən hədd daxilində özəl tacir və sahibkarların fəaliyyəti ilə barışırdı; o zaman inqilabi qüvvələr və təşkilati hazırlıq tədricən dirçəlirdi və Azərbaycanda antisovet işi daha "dinc" formalarda cərəyan edirdi. Həmin dövrdə inqilabi azadlığın fəallığı özünü daha çox ideoloji formada göstərirdi.

Əsas milli-demokratik prinsiplərin bir qədər əvvəl haqqında danışdığımız ideya hücumu da elə həmin dövrə uyğun idi. Lakin sovet siyasət xəttinin kəskin dəyişməsi Azərbaycan xalqının taktikasında da kəskin



dəyişikliyə səbəb oldu.

Beş il müddətində Sovet İttifaqının müdhiş sənayeləşmə planının tətbiqi və onunla əlaqədar məcburi taxıl tədarükü kəndlilərin müqaviməti ilə üzləşdi: onlar taxılı sabit qiymətlə satmaqdan imtina edirdilər. Hökumətin güc işlətməsinə isə onlar kommunistləri, taxıl tədarükü agentlərini öldürməklə cavab verirdilər. Kütləvi həbslər, saysız-hesabsız ölüm hökmləri çıxaran xüsusi məhkəmə prosesləri başlandı.

Bolşeviklər «kənd təsərrüfatının başdan-başa kollektivləşdirilməsi» deyilən tədbirə əl atanda kəndlilərin əsl üsyanları başlandı. 1929-cu ilin sonundan 1931-ci ilin axırına qədər Azərbaycanı qanlı hadisələr bürümüşdü; dövlət tərəfdən nizami ordunun iştirak etdiyi əsl savaşda üsyançılara qarşı boğucu qazlardan və aeroplanlardan istifadə olunurdu.

Dağlarda gizlənən partizanların sayı narazı kəndlilərin onlara qoşulması sayəsində artırdı. Zaqafqaziya Sovet Respublikaları Federasiyasının başçısı Eliavanın[48] "üsyançılar hərəkatın geniş dalğası"[49] adlandırdığı xalq hərəkatı başlandı və bütün Azərbaycana yayıldı.

Ölkənin müxtəlif hissələrində - Göyçayda, Ağdaşda, Gədəbəydə, Qarabağda, Zaqatalada, Nuxada, Gəncə rayonunda, eləcə də Naxçıvanda, Vedibasar və Dərələyəz rayonlarında böyük hadisələr baş vermişdi. Nuxa, Şuşa, Zaqatala, Ağdaş şəhərlərini və digər böyük yaşayış məntəqələrini üsyançılar bir neçə gün əllərində saxlamışdılar. Körpülər partladılır, dəmir yollarında hərəkəti dayandırılırdı. Məsələn, Culfa-İrəvan dəmir yolunda tam bir həftə fasilə yaranmışdı. Qatarları zirehli qatarlar müşayiət edirdi. Bakı-Gəncə xəttində qatarlara hücum halları baş verirdi. Yevlax körpüsünün mühafizəsi gücləndirilmişdi. Üsyançıların ümumi sayı 10000-ə çatmışdı.

Bolşeviklər üsyanlara qarşı təsvirolunmaz amansızlıqla mübarizə aparırdılar; onlar xalq hərəkatını qan

içində boğmaq istəyirdilər. Kəndləri yandırılb qarət edirdilər. Güllələnənlər arasında parlamentin keçmiş üzvlərindən Əli bəy[50], Əşrəf bəy[51], Həmdulla Əfəndi[52], baş ruhani şəxs – Şeyxülislam[53] Qəni və bir çox başqaları vardı. Həbslərin, sürgünlərin, məhkəməsiz divantutmaların sonu görünmürdü. Həbsxanalar ziyalılarla ağzına kimi doldurulmuşdu. Məhbusları kütləvi surətdə Rusiyaya sürgün edilirdilər; bu vəziyyət ümumən bu günədək davam edir.

Camaat təlaş içində məskunlaşdığı yerləri tərk edirdi, o qaçanların çoxu indi də İrandadır, o bədbəxtlərin dözülməz vəziyyəti haqqında ətraflı məlumatla Azərbaycan nümayəndə heyətinin 1930-cu ildə Parisdə Millətlər Liqasına ünvanlanmış memorandumda tanış olmaq mümkündür.

Bolşeviklər əvvəlcə üsyan faktını rəsmən təkzib edərək baş vermiş hadisələrin üstündən uzun müddət sükutla keçsələr də, nəhayət, "üsyan hərəkatı" haqqında həqiqəti tam açıqlığı ilə etiraf etməyə məcbur oldular. Ona görə "tam açıqlığı ilə" deyirik ki, sovet dövlət xadimləri öz çıxışlarında bu hadisələrdən danışarkən "antisovet", "antikolxoz", nəhayət, "antipartiya" hərəkatı terminlərini işlədir, "üsyan" sözündən cidd-cəhdlə yayınırdılar. Bu müqəddəs söz, axır ki, onların dillərindən eşidildi. Sovet Zaqafqaziya Federasiyasının başçısı Eliava Tiflisdə Kommunist Partiyasının Zaqafqaziya Ölkə Komitəsinin plenar iclasında Zaqafqaziyada siyasi vəziyyət haqqında ətraflı məruzə ilə çıxış etmişdi. Onun dediyinə görə, "bütövlükdə Sovet İttifaqının heç bir yerində bu dərəcədə kəskin vəziyyət olmamışdır". Bu kəskinlik ələlxüsus kənddə nəzərə çarpırdı. Kənddəki vəziyyətin təsvirini verən sovet məmurlarından biri Zaqafqaziya respublikaları üzrə müəyyən təsnifat aparışdır. Məlum olmuşdur ki, "Gürcüstan gözləmə mövqeyindədir, türk rayonlarında vəziyyət ağır, Tiflis bölgəsində, Ermənistanda, məsələn, Zəngəzur, Qarayazı kimi rayonlarda,



Dilican və Lori-Bəmbək bölgəsinin bir hissəsində daha mürəkkəb, Azərbaycanda isə xeyli ağırdır. Azərbaycanın Naxçıvan, Zaqatala və Nuxa bölgələrini üsyan hərəkatı dalğası bürümüş, bir çox yerlərlə əlaqə kəsilmişdir. Bütün bunlara bizim düşmənlərimiz – Azərbaycandakı güclü qolçomaqlar və xarici təsir rəhbərlik edir".

İşğalçı sovet rejimi əleyhinə üsyan hərəkatında xalqın bütün təbəqələri birləşmişdi. Görün, Eliava bu barədə qəzəb və həyəcan dolu necə ifadələr işlətmişdir: "Orta təbəqə ünsürləri onun təsiri altına düşməyincə qolçomaq özlüyündə qorxulu deyil. Təəssüf ki, biz muzdur-yoxsul və ortabab kütlələri bu təsirə qarşı qoymaq üçün çoz az iş görmüşük". "Hazırda kənddə bütün antisovet qüvvələrin – qolçomaqların, keşişlərin, mollaların, menşeviklərin, daşnakların, müsavatçıların və başqalarının riqqətli birliyi müşahidə olunur..."

Təxminən üç il bu cür fövqəladə hadisələr Azərbaycanı başına götürmüşdü. Ölkənin bütün dağları xalq üsyanı alovuna qərq olmuşdu. Məmləkətin ən yaxşı oğulları Moskva müstəbidlərinin şeytani bədheybət eksperimentlərinə tabe olub şərəfsiz qul kimi məhv olmaqdansa, mübarizədə şərəflə ölməyi üstün tuturdular.

Axı Azərbaycan və bütövlükdə Qafqaz şəraitində "qolçomaqların bir sinif kimi ləğv olunması" əsas xalq kütləsinin hamılıqla məhv edilməsindən başqa bir şey deyil. Axı Azərbaycanda kənd əhalisinin 60 faizi "qolçomaqsızlaşmaya" məruz qalan şəxslər kateqoriyasına aiddir. Nəzərə alın ki, burada təkcə kənd təsərrüfatı deyil, həm də heyvandarlıq kollektivləşdirilirdi.

Azərbaycanda, eləcə də bütün Qafqazda heç zaman icma əkinçiliyi institutu olmayıb. Bu, Rusiya həyatına xas olan hadisədir. Üstəlik, eksperimentlər 70 faizi qeyri-azərbaycanlı olan sovet məmurlarının əli ilə həyata keçirilirdi. "İnqilabın" məcburi gücü isə ruslardan –

işğalçı qırmızı ordudan ibarət idi.

Belə bir şəraitdə kəndli sinfinin "antikolxoz" çıxışları təkcə antisovet deyil, həm də antiişğalçı, yəni antirus xarakteri daşıyırdı. Sosial-sinfi məqam milli maraqla tam üst-üstə düşürdü. Müəyyən edilmişdir ki, üsyançılar təkcə kollektivləşmənin ləğvini deyil, həm də milli hakimiyyətin bərpasını tələb edirdilər. Yerli qırmızı ordu əsgərlərinin dəstə-dəstə üsyançıların tərəfinə keçməsi, milisin heç vaxt etibarı doğrultmaması və hətta yerli kommunistlərin partizanlara qoşulması faktı məgər bizim müddəamızın ədalətli olduğunu təsdiqləmirmi? Zaqafqaziyada partiya iclaslarında çıxış edən sovet natiqləri dəfələrlə bu "kədərli" hadisəni xatırlatmışlar. Onlardan biri (Çaplin)[54] kommunist partiyasının «kənddəki kadrlarından» bəhs edərkən onların son hadisələrdəki davranışlarını açıq-aşkar "biabırçılıq" adlandıraraq demişdir: "Nuxada ağır anlarda bir çox kommunist və komsomolçuların bizə xəyanət edib açıq şəkildə düşmən tərəfə keçməsi bizi bir daha vurğulamağa vadar edir ki, kənddə partiyanın əsas özəyinə "yalnız son döyüşlərdə sınanmış və mətinləşmiş şəxslər" seçilməlidir[55]. Sovet natiqlərinin komsomolçuların satqınlıq faktı haqqında dedikləri dağlara çəkilib onları təqib edən çekistlərlə mərdliklə döyüşən, öz ürəklərinə sıxdıqları son gülləyə qədər müdafiə olunan 10 komsomolçunun qəhrəmanlığı barədə bizim söylədiklərimizin həqiqət olduğunu sübut edir[56].

Bu qırmızı əsgərləri, milis işçilərini, yoxsulları, ortababları, kommunistləri və hətta komsomolçuları onda, elə indi də "qolçomaqla", "sinfi düşmənlə" birlikdə mübarizə aparmağa, dağlardakı partizanlara, sovet mətbuatının termini ilə desək, "quldurlara" qoşulmağa nə məcbur edir? Tiflisdə Zaqafqaziya Ölkə Komitəsinin iclasında çıxış etmiş Azərbaycan Kommunist Partiyasının katibi "yoldaş" Gikalonun[57] sözlərinə qulaq assaq, təsdiq etməliyik ki, bütün bunla "Müsa-



vat"ın işidir. Bu Azərbaycanda antisovet üsyançı hərəkatın ilhamvericisi "müsavatçılıq"dır.

Azərbaycan milli hərəkatının sinonimi kimi "müsavatçılıq" bütün bu hərəkatda, şübhəsiz ki, çox mühüm rol oynamışdır. Lakin məsələ sinonimsiz də aydındır - səbəb ümumi milli bədbəxtlik idi və indi də belədir. Ümumi milli etiraz isə bu səbəbin nəticəsidir.

Partizanlar Azərbaycanın milli bayrağını qaldırmışdılar.

## IV

Azərbaycan milli hərəkatının çağdaş vəziyyətindən danışarkən, təbii ki, Azərbaycan mühacirətinə, ilk növbədə onun siyasi rəhbərliyinin apardığı ideya-təbliğatçılıq işinə xüsusi diqqət yetirmək lazımdır.

Azərbaycan mühacirəti əsas etibarilə bolşeviklərin ölkəni işğal etdikləri birinci gündən başlayaraq ayrı-ayrı vaxtlarda ölkəni tərk etmiş müxtəlif təbəqələrdən ibarətdir. İlk mühacirlər respublikada yüksək siyasi mövqeyə malik olmuş şəxslər, yəni keçmiş nazirlər, deputatlar, zabitlər, məmurlar və ictimai siniflərin bəzi görkəmli nümayəndələri olmuşlar. Sonra isə işğalçıların repressiyası gücləndikcə mühacirlərin sırasına adi insanlar da əlavə edilmişdir. 1930-1931-ci illərdə kəndli üsyanları yatırılandan sonra əhali dəstə-dəstə İran və Türkiyənin yaxın əyalətlərinə köçməyə başladı. Bütövlükdə Azərbaycan mühacirlərinin sayı hazırda 10000 nəfəri keçmişdir.

Lap əvvəldən Azərbaycan mühacirətinin siyasi fəaliyyəti iki böyük məntəqədə: Parisdə və İstanbulda nəzərdə tutulmuşdu. Hələ milli hökumətin[58] vaxtında respublikanı Sülh konfransında[59] təmsil edən Azərbaycan nümayəndə heyəti Parisə səfər etmişdi. Hökumət devrildikdən sonra onlar orada öz siyasi təşviqat işlərini davam etdirirdilər. Azərbaycanın görkəmli siyasi xadimlərinin hamısı İstanbulda cəmləşərək vətənin hüquqlarını müdafiəsi və müstəqil Azərbaycan ideyasının təbliği məqsədilə müxtəlif siyasi təşkilatlar

və cəmiyyətlər yaratmışlar. İranın böyük mərkəzlərində - Tehranda, Təbrizdə və Rəştdə, habelə Avropanın, məsələn, Berlin kimi mərkəzlərində də belə qurumlar vardı.

1922-ci ilin əvvəllərinə qədər siyasi mübarizə fasilələrlə aparılırdı, təbliğat müntəzəm olmurdu. Həmin ilin başlanğıcında M.Ə.Rəsulzadə İstanbula gələn kimi (o, Rusiyaya sürgündən qaçmışdı) Azərbaycanın faciəsini təfsilatı ilə şərh edən, bütün vətənpərvərləri doğma xalqın pozulmuş hüquqlarının bərpası uğrunda mübarizə bayrağının ətrafında birləşməyə çağıran ilk kitab meydana gəlir. Bunun ardınca həmin müəllifin redaktorluğu ilə bütün türk, qismən də Qafqaz mühacirətinin ilk mətbu orqanı - iki həftədə bir dəfə nəşr olunan «Yeni Qafqasiya» jurnalı təsis edilir.

Azərbaycan mühacirətinin bu cür təsis olunmuş mətbu orqanı, artıq 14 ilə yaxındır, öz işini fasiləsiz davam etdirir. "Yeni Qafqasiya"nın başladığı işi hazırda Berlində 10 gündə bir dəfə çıxan "İstiqlal"[60] qəzeti də davam etdirir. Bu iki nəşr arasındakı müddətdə isə eyni siyasi proqramı dəstəkləyən, eyni redaksiya üzvlərinin iştirakı ilə, eyni siyasi proqramla "Azəri-Türk"[61], "Odlu Yurd"[62] və "Bildiriş"[63] adlı digər Azərbaycan nəşrləri də çıxmışdır.

Həmin proqram isə bunlardan ibarət idi:

1) Milli dövlətçilik ideyasının təbliği və Azərbaycanın itirilmiş müstəqilliyinin bərpası uğrunda mübarizənin qorunuması.

2) Bolşevizmin müəyyən bir ictimai-siyasi ehkam kimi tənqidi və müstəmləkəçilik istismarının ən pis forması kimi sovet dövlətinin milli siyasətinin ifşası.

3) Rusiya bolşevizminin işğalı altında olan ölkənin gündəlik həyatının sosial-siyasi cəhətdən təhlili əsasında siyasi məqamın tələblərinə uyğun növbəti mübarizə şüarlarını müəyyənləşdirən nəticələrin əldə edilməsi.



4) İnqilabi millətçilik ruhunda radikal-demokratik dünyagörüşü formalaşdıran yetkin sosial-siyasi proqramın hazırlanması və inkişaf etdirilməsi.

5) Sovet mətbuatının tənqid etmək və onunla polemikaya girişmək.

Dövri orqanlardan başqa, Azərbaycan nəşriyyatı eyni xarakterdə müxtəlif dillərdə 20-dən artıq adda, məsələn, "Azərbaycan Respublikası"[64], "Millətçilik və bolşevizm", "Müstəqillik uğrunda" (milli-inqilabi şeirlər məcmuəsi), "Panturanizm və Qafqaz probleminə dair"[65], "Qafqaz problemi"[66], "Müstəqillik və gənc nəsil" və s. kimi bir sıra kitab və kitabçalar nəşr edilmişdi.

Oxucuya Azərbaycan mühacir mətbuatı və ədəbi yaradıcılığının əsl önəmi barədə mühakimə yürütmək imkanı vermək üçün qeyd etmək lazımdır ki, bu mətbuat Vətəndə istənilən səmərəni verirdi və verməkdə də davam edir. Əsassız görünməsin deyə vəziyyəti sovet həyatından gətirilən faktlarla və bolşevik mətbuatından götürülmüş sitatlarla təsvir edək.

Azərbaycan haqqında hələ 1922-ci ildə İstanbulda nəşr edilmiş birinci kitab lazımı təəssürat oyatmışdı. Bakının və Tiflisin kommunist qəzetlərində kommunist mühitinin M.D.Huseynov[67] A.Q. Qarayev[68] və başqaları kimi məsul xadimləri qələmə sarılaraq səhifə-səhifə yer tutan silsilə məqalələr yazmağa, M.Ə.Rəsulzadənin müddəalarını «təkzib etməyə» başlamışdılar, «Müsavat hökumətinin vaxtında Azərbaycanın müstəqil olmadığını, onun azadlığının yalnız sovet rejimi dövründə təmin edildiyini sübut etməkdən ötrü dəridən-qabıqdan çıxırdılar. Stalinin yaxın adamı, o zaman Zaqafqaziyanı işğal etmiş 11-ci sovet ordusu qərargahının məsul üzvü və Rusiya Kommunist Partiyası dairə komitəsinin baş katibi olmuş S.Orconikidze Bakıda partiyaçılar auditoriyası qarşısındakı çıxışında demişdi: "Portfelimdə M.Ə.Rəsulzadənin kitabı var. "Müsavat" başqanı tələb edir ki, rus yoldaşlar Azərbaycandan getsinlər. Yox, onlar getməyəcəklər.

Onlar bizə sovetləşmənin işçiləri və əməkdaşları kimi lazımdırlar. Lakin eyni zamanda biz qüsurlarımızı aradan qaldırmalı və Azərbaycan müəssisələrini milliləşdirməli, türk yoldaşları işə cəlb etməliyik, amma ona görə yox ki, bunu Rəsulzadə tələb edib, yalnız ona görə ki, bu bizim birbaşa vəzifəmizdir. Azərbaycan bütün Ş ərq üçün nümunəvi respublika olmalıdır".

"Yeni Qafqasiya" meydana gələn kimi Bakı ilə İstanbul arasında fasiləsiz polemika başlandı. Tez-tez Tiflis də bu polemikaya qoşulurdu; zaman-zaman hətta mərkəzi sovet mətbuat orqanları da bu polemikada iştirak edirdilər. Adi qəzet məqalələrindən başqa, bolşeviklər «müsavatçıların» xaricdə çıxan azad mətbuatına qarşı əllərinə keçən digər lazımi vasitələrdən də istifadə edirdilər. "Sosialist vətəninə kapitalistlərin müdaxiləsini hazırlayan müsavatçıların iftirasına" qarşı xüsusi "fəhlə mitinqləri" səhnələşdirilərək burada etiraz qətnamələri qəbul edilirdi. Xüsusi təhdidlər vasitəsilə məhbuslardan "iflasa uğramış millətçilərin xaricdə apardıqları böhtançı təbliğatı" məhkum edən bəyanatlar alınırdı. Bakıda və digər yerlərdə fəaliyyət göstərən təşkilatların qurultayları və ümumi yığıncaqları adından Sovet İttifaqının xarici işlər komissarı yoldaş Çiçerindən tələb edilirdi ki. dost Türkiyə hökuməti müsavatçılara onun ərazisində antisovet nəşrləri yaymağı qadağan etsin və milli Azərbaycan mühacirətinin xadimlərinə sığınacaq verilməsin. Bu mənada Azərbaycan Kommunist Partiyası Bakı təşkilatının 16-cı konfransı səciyyəvi idi. Konfransın bütöv bir iclası (Bu konfrans haqqında hesabata Bakı qəzetlərinin 1925-ci il dekabrın son günlərində çıxmış müvafiq saylarında rast gəlirik) türk ziyalılarının sovet rejiminə qarşı qeyri-loyallığına, müsavatçıların gizli fəaliyyətinə, müəllimlərin millətçilik fəaliyyətinə və bütün bu günahlarda xarici təbliğatın, xüsusən "Yeni Qafqasiya" jurnalının roluna həsr edilmişdi. Natiqlər Azərbaycanın bəzi kommunistlərinin, məsələn, Rzayev[69] soyadlı birinin "Zarya Vostoka"nın səhifələrindəki çıxışına istinadən belə hesab edirdilər ki, Rzayev kimiləri «Yeni Qafqasiya»nın təsiri altına düşmüşlər. Rzayev həmin yazısında bildirirdi ki, "Bakı Komitəsi Azərbaycanı türkləşdirmək istəmir və o, yəni Bakı Komitəsi, bütövlüklə partiyadakı türk kadrlarına qarşı saymazlıq nümayiş etdirir...». Natiqlərdən ən qəzəblisi olan R.Axundov israr edirdi ki, Sovet hakimiyyəti Türkiyədən "iki ölkənin dostluq münasibətlərinə təhlükə yaradan bu orqanı" bağlamağı tələb etsin.



O zaman tam təsadüfən, xalis texniki səbəbdən "Yeni Qafqasiya" jurnalı bir müddət nəşrini dayandırmalı olmuşdu. Bakıda bunu əsl bayram kimi qarşılamışdılar. "Kommunist" qəzeti "Müsavatın" tam ləğv edildiyi haqqında təntənəli baş məqalə ilə çıxış etmişdi. Lakin o zaman məyus olmuş bolşeviklər sonralar təsəlli tapa bildilər. Mövcudluğunun 5-ci ilində Anqora (Ankara şəhərinin qədim adı - red.) hökumətinin qərarı ilə jurnal bağlandı. Əvəzində "Azəri-Türk", "Odlu Yurd"[70] jurnalları və sonralar "Bildiriş" qəzeti çıxmağa başladı. Onların hamısı daha böyük uğurla eyni işi görür, bolşevikləri əsəbiləşdirir və onların mətbuatının səhifələrində qızğın polemikalara səbəb olurdu.

Nəhayət, 1931-ci ilin sonlarına yaxın sovet diplomatiyası qələbə çaldı və yuxarıda adları çəkilən bütün nəşrlər İstanbulda fəaliyyətlərini dayandırmağa məcbur oldular.

Həmin vaxtdan etibarən azərbaycanlılar nəşriyyatlarını Berlinə köçürdülər. İndi ikinci ildir ki, burada eyni proqram və eyni redaksiya heyəti ilə "İstiqlal" qəzeti buraxılır, sovet mətbuatında eyni rəyləri doğurur.

Hazırda Azərbaycan bolşeviklərinin xüsusi olaraq müsavatçılarla polemika üzrə ixtisaslaşmış mütəxəssisləri var; keçmiş xalq təhsili komissarı M.Quliyev belələrindən biridir, o, mətbuat səhifələrində təkcə

"müsavat bölməsini" aparmır, həm də vaxtaşırı olaraq bu təlaşlı mövzu ilə bağlı xüsusi "əsərlər" buraxır.

Azərbaycanın hüdudlarından kənarda da Azərbaycan mühacirətinin xaricdə çıxan mətbuatına tənqidi məqalələr həsr edilir. Misal olaraq Edil-Ural[71] kommunisti A.İbrahimovun[72] "Qara mayaklar"[73] kitabını göstərə bilərik, burada o, türk antisovet mühacirətinin yazıları içində azərbaycanlıların əsərlərinə xüsusi önəm verir.

Bu nəşrlər bizə separatçı kimi düşmən münasibəti bəsləyən rus mühacirlərinin xarici mətbuatında da vaxtaşırı olaraq tənqid atəşinə tutulur və bu məqsədlə qəzet məqalələrindən başqa, rus dilində "Panturanizm haqqında" xüsusi kitabça da buraxılmışdır.

Hazırda "İstiqlal" adlı mübariz orqandan başqa, Berlin və İstanbulda xüsusi olaraq elmi-ədəbi xarakterli materialların araşdırılması ilə məşğul olan "Azərbaycan Yurt Bilgisi"[74] adlı elmi-ədəbi jurnal nəşrini davam etdirir.

Bundan əlavə, azərbaycanlılar Parisdə nəşr olunan, Qafqaz, Ukrayna və Türküstan xalqlarının milli maraqlarını müdafiə edən orqan - "Prometey"[75] jurnalında da fəal iştirak edirlər.

Azərbaycan mühacirətinin siyasi fəaliyyətinə Azərbaycan Milli Mərkəzinin rəyasət heyəti və "Müsavat" partiyasının xarici nümayəndəliyi rəhbərlik edir, onların hər ikisinin başında Azərbaycan Milli Məclisinin keçmiş sədri M.Ə.Rəsulzadə durur.

Mühacirətin başlıca məntəqələrində daha çox konspirativ xarakterli yerli siyasi təşkilatlar vardır. Bundan başqa, bəzi tələbə və xeyriyyə birlikləri də mövcuddur. Polşa, Türkiyə və İran ordularında xidmət edən zabit kadrları var idi. Türkiyə və İranın dövlət müəssisələrində müvafiq vəzifələr tutan ziyalı şəxslər - mütəxəssislər, eləcə də ayrı-ayrı azad peşə və elmi fəaliyyət nümayəndələri də var.

Bütün bu mühacirət qüvvələri bütün mühacirlər



kütləsi ilə birlikdə özlərində mübarizə ruhunu və azadlıq ümidini qoruyub-saxlayır, dünya hadisələri ilə yaxından maraqlanırlar; onların arasında döyüşən ölkədən çıxmış keçmiş yaraqlı partizanlar da çoxdur.

Əsas məskunlaşma yerlərində şəraitin primitivliyi ilə daha da qəlizləşən mühacirət həyatının ağır durumuna baxmayaraq imkan daxilində onlar öz milli həyatlarını yaşayır və milli tarixin xüsusi əlamətdar günlərində Vətəni yada salır, itirilmiş müstəqilliyi bərpa etmək uğrunda yorulmadan mübarizə aparacaqlarına and içirlər.

Azərbaycan mühacir təşkilatları digər Qafqaz xalqlarının eyni tipli təşkilatları ilə sıx əməkdaşlıqda fəaliyyət göstərirlər. Azərbaycan Milli Mərkəzi tərkibində həm gürcü təşkilatlarının, həm də Şimali Qafqazın dağ xalqlarının nümayəndələrinin olduğu Qafqazın Müstəqilliyi Komitəsinin işində fəal iştirak edir. Qafqazın Müstəqilliyi Komitəsi Qafqaz həmrəyliyi ideyasını təbliğ edir və Qafqaz respublikalarının konfederasiya əsasında İttifaqını yaratmağa çalışır. Bir az əvvəl haqqında danışdığımız, Parisdə nəşr olunan "Prometey" jurnalının təsisçisi də bu Komitədir və o həmin komitənin nəşridir.

Azərbaycan təşkilatı eyni zamanda rus-bolşevik istilasına qarşı mübarizə aparan xalqların hamısı ilə mümkün formalada əlaqə quraraq Rusiyanın əsarəti altında olan bütün xalqların Liqası - Prometey cəmiyyətinin işində də fəal iştirak edir. Qafqaz xalqlarından başqa, bu birliyə Ukrayna, Türküstan, Edil-Ural[76], Krım və digər xalqlar da daxildir.

## V

Kommunist hakimiyyətinin və istilaçı sovet rejiminin sovetləşdirilmiş Azərbaycanın formaca milli mədəniyyətini istisnasız olaraq bütün milli (formaları) aradan qaldıran və onları vahid ümumittifaq, başqa sözlə, ümumrusiya anlayışı çərçivəsinə salan "proletar" məzmunu ilə doldurmaq niyyətinə baxmayaraq, hadisələrin

təbii axarı və Azərbaycan cəmiyyətinin potensial gücü hesabına bu "milli formalar" "milli məzmunu" yetərli dozada canına çəkir.

Hər şeydən öncə, başlıca olaraq xalq təhsilinin, ədəbiyyatın, teatrın və digər mədəniyyət qurumların inkişafını nəzərə almaqla, bolşeviklərin dövründə Azərbaycanda "milli formaların" hansı dərəcədə uğur qazandığını qeyd edək.

Hazırda bütün Azərbaycanda 1300-ə yaxın «tərbiyə evi» deyilən müəssisə var ki, burada hər iki cinsdən orta hesabla 44000 uşaq var; onlardan 23 000 nəfəri türkdür. İbtidai məktəblərin sayı isə 1600-ə çatır və burada 200 000-ə yaxın şagird təhsil alır; onların təxminən 110 000 nəfəri türkdür. Sayı 160-a yaxın olan ikinci dərəcəli məktəblərdə 23 000 nəfəri türk olan 44 000-dən çox şagird oxuyur. Azərbaycan Universitetinin indi müstəqil institutlara çevrilmiş fakültələrində və digər ali məktəblərdə, məsələn, ali texnika, ali aqronomluq institutlarında yalnız 4000 nəfəri köklü Azərbaycan türkü olan 12 000 tələbə təhsil alır.

Bundan başqa, yaşlılar üçün ümumtəhsil kursları da mövcuddur ki, burada savad öyrənənlərin sayı 441 000 nəfərdir; onlardan 200 000-ə qədəri türklərdir.

Bütün məktəblərdə rəsmi tədris dili türk dilidir. Bütün fənlər türk dilində tədris edilir. Milli azlıqların məktəblərində türk dili icbari fənn kimi tədris edilir; onu da qeyd etmək lazımıdır ki, bütün məktəblərdə rus dili də icbari fənn kimi öyrədilir. Yalnız ali təhsil müəssisələri istisnalıq təşkil edir, burada ali pedaqoji institutu çıxmaq şərti ilə qalanların hamısında dərslər rusca keçilir. Ali təhsil müəssisələrini türkləşdirmək məqsədilə bu yaxınlarda xüsusi qurultay çağırılmış və oada qəbul edilmiş qərara əsasən, bütün ali məktəblərin tədricən türkləşdirilməsi qəti şəkildə 1933-cü il martın 1-dək tam başa çatdırılmalı idi.

